HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 08 (748) ■ 25 fevral 2015 www.vergiler.az Qiyməti: 40 qəp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Prezident İlham Əliyev: «Azərbaycan güləşi dünya miqyasında ən yüksək zirvədədir»

## Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yunan-Roma güləşi üzrə İranda keçirilən Dünya Kuboku yarışlarında qalib gəlmiş milli komandamızın üzvlərini qəbul edib



Güləş Federasiyası Olimpiya Oyunlarında, dünya çempionatlarında, digər beynəlxalq yarışlarda qazanılan medallara və yüksək nəticələrə görə Azərbaycanda liderdir

İdmançıları salamlayan dövlətimizin başçısı deyib: «Əziz idmançılar, Güləş Federasiyasının üzvləri. Sizi, ilk növbədə, böyük qələbə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan yunan-Roma güləşi üzrə Dünya kubokunun sahibidir. Bu, böyük tarixi qələbədir. Bu, doğrudan da tarixi qələbədir. Çünki yunan-Roma güləşçilərimiz ilk dəfədir ki, Dünya kubokunun sahibi olurlar. Bu, bir daha Azərbaycanın güləş məktəbinin nə qədər güclü olduğunu göstərir. Bizim güləşçilərimiz müxtəlif beynəlxalq yarışlarda ən yüksək nəticələr göstərirlər, London Olimpiya Oyunlarında 2 qızıl medalı da güləşçilərimiz qazanmışlar və ümumiyyətlə, dünya miqyasında Azərbaycan güləşi bu gün ən yüksək zirvədədir.

Dünya kubokunda dünyanın ən güclü komandaları iştirak etmişlər. Biz dünyanın ən güclü komandalarına qalib gəlmişik. Bizim milli bayrağımız qaldırılmışdır, sizin şərəfinizə dövlət himnimiz səsləndirilmişdir. Doğrudan da bu, hər bir Azərbaycan vətəndaşını sevindirən hadisədir, böyük tarixi qələbədir. Bu qələbə onu göstərir ki, Güləş Federasiyasında işlər çox yaxşı gedir, düzgün qurulubdur. Güləş Federasiyası Olimpiya Oyunlarında, dünya çempionatlarında, digər beynəlxalq yarışlarda qazanılan medallara və yüksək nəticələrə görə Azərbaycanda liderdir. Bu, belədir və mən bunu yüksək qiymətləndirirəm. Çünki güləş Azərbaycanda ən sevilən, ən populyar idman növüdür və bizim milli idman növümüzdür. Əlbəttə, hər bir qələbədən sonra çox güman ki, uşaqlarımız, yeniyetmələrimiz güləş bölmələrinə daha da böyük həvəslə gedəcəklər, güləşçi olmaq istəyəcəklər ki, onlar da sizin kimi Azərbaycanı ləyaqətlə təmsil etsinlər, çempion olsunlar və yüksək kürsülərdə əyləşsinlər.

Mən Federasiyasının işindən razıyam. Bütövlükdə Azərbaycanda idman sahəsinə göstərilən diqqət öz nəticələrini verməkdədir. Azərbaycan idman dövlətidir. Bütün mötəbər beynəlxalq idman qurumları, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, dünya idman federasiyaları bunu qeyd edirlər ki, Azərbaycan idman sahəsində çox böyük uğurlara imza atmışdır və bu, həqiqətən də belədir. Çünki baxın, Olimpiya Oyunlarında, dünya miqyasında Azərbaycan 30-cu yerdədir, yeniyetmələrin Olimpiya Oyunlarında 200 ölkə arasında Azərbaycan 10-cu yerdədir. Azərbaycanda dünya və Avropa çempionatları ən yüksək səviyyədə keçirilir və bütün qonaqlar bunu qeyd edirlər. Bizim idmançılarımız hər il medalların sayına görə liderlik göstərirlər, həm Olimpiya, həm qeyri-Olimpiya idman növləri üzrə medalların sayı ildən-ilə artır.

Azərbaycanda idman infrastrukturu yaradılır. Əgər bu infrastruktur yaradılmasaydı, çox güman ki, bu uğurlar da mümkün olmazdı. Bütün bölgələrdə müasir Olimpiya mərkəzləri, Bakıda ən möhtəşəm Olimpiya idman qurğuları tikilir və idman dövlət siyasətində çox mühüm yer tutur. Müxtəlif proqramlar qəbul edilmişdir və idmanın inkişafı dövlət siyasətidir. Bu yaxınlarda Bakıda keçirilmiş Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında da səslənən fikirlər, Azərbaycanda görülən işlər mənim sözlərimi təsdiqləyir.

Bu nəticələr təbiidir. Çünki görülən işlər federasiyaların, klubların, Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bizdə vəziyyət belədir ki, bir çox ölkələrdən fərqli olaraq, bütün idman qurumları, idmanın inkişafına cavabdehlik daşıyan qurumlar bir nöqtəyə vurur və idarəetmədə də çox düzgün yanaşma mövcuddur.

Mən əminəm ki, idmançılarımız bundan sonra da bizi sevindirəcəklər. Əlamətdar hal ondan ibarətdir ki, bizim bütün idmançılarımız, o cümlədən bu gün burada əyləşən idmançılar müstəqillik dövründə yetişiblər. Bu, müstəqilliyimizin əlamətidir.

Azərbaycanda bütün dövrlərdə güclü idmançılar olmuşdur. Ancaq əgər sovet dövrünü yada salsaq, görərik ki, bizim o qədər də böyük idman uğurlarımız olmamışdır. Ancaq müstəqillik dövründə Azərbaycan dünya arenalarında ən yüksək nəticələrə çata bilmişdir. Ancaq müstəqillik dövründə bizim Olimpiya çempionlarımız, dünya çempionlarımız, Avropa çempionlarımız özlərini göstərirlər və onların sayı getdikcə artır. Görün indi bizim nə qədər Olimpiya çempionlarımız vardır. Heç vaxt bu qədər Olimpiya çempionlarımız olmamışdır.

Müstəqil Azərbaycanda idman sürətlə inkişaf edir. Mən artıq bu barədə fikirlərimi qeyd etdim. Yəni, müstəqilliyin üstünlüyü müxtəlif sahələrdə özünü göstərir. İlk növbədə, Azərbaycan xalqı azad xalqdır, öz taleyini özü müəyyən edir. Bu gün Azərbaycan reallıqları belədir - hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, o, Azərbaycan vətəndaşıdır. O cümlədən bu müsbət dinamika, müsbət inkişaf idmanda da özünü göstərir və bu da təbiidir. Çünki hər bir sahədə uğurlarımız var, o cümlədən idmanda. İdmanda isə bu nəticələr daha əyani şəkildə özünü göstərir. Çünki medalların sayı, yarışlarda idmançılarımızın qələbələri artıq bu reallıqları təmin edir.

Bir daha sizin uğurunuza qayıtmaq istəyirəm. Yunan-Roma güləşi Azərbaycanda bütün dövrlərdə çox populyar idi. Son illərdə bizim doğrudan da çox güclü komandamız yaranmışdır. Dünya kubokunun əldə edilməsi çox böyük hadisədir. Çünki bu, komandanın qələbəsidir. Bu, onu göstərir ki, bizdə bir-iki idmançı yox, bizdə komanda, çoxsaylı idmançılarımız dünya miqyasında ən güclü idmançılardır. Sizin rəqibləriniz də dünyanın ən güclü idmançıları idi. Siz böyük məharət, peşəkarlıq, Vətənə sevgi göstərərək bu qələbəyə nail oldunuz, bizim hamımızı sevindirdiniz.

Əlbəttə, bilirəm ki, siz bu il Bakıda keçiriləcək birinci Avropa Oyunlarına da ciddi hazırlaşırsınız. Dünya kuboku yarışında göstərdiyiniz nəticələr ümid edirəm ki, iyun ayında da təkrarlanacaq. Bütün Azərbaycan xalqı qələbələr gözləyir. Bu, doğrudan da böyük tarixi nailiyyətdir. Biz birinci Avropa Oyunlarını Yay Olimpiya Oyunları səviyyəsində keçirəcəyik. İki il bundan əvvəl mən bu barədə öz sözümü deyəndə bəziləri bəlkə də inanmırdı ki, Azərbaycan qısa müddət ərzində, cəmi 2 il yarım ərzində bütün hazırlıq işlərini yüksək səviyyədə görə biləcək. Ancaq bu gün demək olar ki, bizim bütün idman qurğularımız ya artıq hazırdır, yaxud da yaxın vaxtlarda hazır olacaq. Bütün təşkilati məsələlər öz həllini tapır və iyun ayında Azərbaycanda böyük idman bayramı qeyd ediləcək.

Əlbəttə, Azərbaycan komandası bu Oyunlarda böyük tərkibdə təmsil olunacaq. Əsas ümidlərimiz, əlbəttə, ondan ibarətdir ki, güləşçilərimiz bizi bir daha sevindirəcəklər. Artıq Yay Olimpiya Oyunlarına da o qədər çox vaxt qalmayıb. Gələn il Rio-de-Janeyroda Olimpiya Oyunları keçiriləcəkdir. Bilirəm ki, ciddi hazırlıq gedir. Bir daha qeyd etmək istəyirəm, belə mötəbər yarışlarda qələbənin qazanılması onu göstərir ki, bizim bundan sonra da qələbələrimiz olacaqdır.

Mən bir daha sizin hamınızı ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra də Vətənə, xalqa sədaqət nümayiş etdirərək bizi yeni qələbələrlə sevindirəcəksiniz».

Milli komandanın üzvü Rafiq Hüseynov və böyük məşqçi Nurəddin Rəcəbov qazanılan uğurların təməlində idmana dövlət qayğısının durduğunu söyləyiblər və buna görə də Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

Görüşün sonunda Prezident İlham Əliyev bildirib ki, əldə edilən qələbələr Azərbaycan dövlətinin və xalqının gücünü göstərməklə yanaşı, həm də Azərbaycan gənclərinin istedadını və Vətənə sədaqətini bir daha nümayiş etdirir: «Bizim güləşçilərimiz dünyada ən güclü güləşçilərdir. Yəni bu qələbənin əsl nəticəsi bundan ibarətdir. Çox şadam ki, yunan-Roma güləşçilərimiz, sərbəst güləşçilərimiz, qadın güləşçilərimiz bizi sevindirirlər. Qadın güləşçilərin fəaliyyətini də mən çox yüksək qiymətləndirirəm. Bu sahədə əldə edilmiş nailiyyətlər məni çox sevindirir. Çünki bizdə keçmişdə qadın güləşi olmamışdır. Ancaq bu gün qadınlar da yüksək pillələrə qalxırlar, Azərbaycanı dünyada ləyaqətlə təmsil edirlər. Beləliklə, güləşin hər üç növü üzrə Azərbaycan dünyada liderdir. Bu, danılmaz həqiqətdir. Bu liderliyi biz son bir neçə il ərzində əldə etmişik. Mən qeyd etdim ki, güləş Azərbaycanda ən sevilən, ən populyar idman növüdür, milli idman növümüzdür. Ancaq beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında bu qədər qələbəmiz heç vaxt olmamışdır. Bu, görülən işlər nəticəsində mümkün olmuşdur.

Mən bir daha ilk növbədə idmançıları, onların məşqçilərini, idman mütəxəssislərini və Güləş Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Onların fəaliyyətini, xüsusilə qeyd etmək istəyirəm. Bu qələbə bir daha Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücünü göstərir. Onu göstərir ki, Azərbaycan gənci nə qədər istedadlıdır, güclüdür, Vətənə sədaqətlidir. Çünki qələbəni əldə etmək üçün sadəcə olaraq peşəkar güləşçi olmaq kifayət deyildir. Gərək qələbə əzmi olsun, gərək Vətən sevgisi olsun, vətənpərvərlik ruhu yüksək səviyyədə olsun. Bütün bunlar var. Azərbaycan gəncləri bu gün milli ruhda tərbiyə olunurlar. Azərbaycan gənci öz dövlətinə, xalqına sadiqdir. Bu gün Azərbaycan gənci bizim sərhədlərimizi qoruyur. Bu gün Azərbaycan gənci düşmənə sarsıdıcı zərbələr vurur. Bu gün Azərbaycan gənci dünya miqyasında Azərbaycanın idman şöhrətini ucaldır. Bu, məni Prezident kimi və Milli Olimpiya Komitəsinin prezidenti kimi sevindirir. Çünki gənclər gələcəkdə ölkəmizi idarə edəcəklər. Onlar vətənpərvər, bilikli, savadlı, fiziki cəhətdən güclü olmalıdırlar ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin. Belə qələbələr əlbəttə ki, bu inamı daha da gücləndirir. Ona görə, mən bu qələbəyə çox böyük əhəmiyyət verirəm. Siz dünən Vətənə qayıtmısınız və bu gün sizinlə görüşürük. Bir daha sizə öz səmimi arzularımı çatdırır və yeni qələbələr arzulayıram».

2 Vergilər naziri Fazil Məmmədov Hacıqabulda vətəndaşları qəbul edib

3 Azərbaycan və Qazaxıstan arasında işgüzar münasibətlər genişlənir

3 «195» Çağrı Mərkəzinin təqdimat mərasimi keçirilib

5 Mərkəzləşdirilmiş kredit fondu şəffaflığı təmin edəcək

# Vergilər naziri Fazil Məmmədov Hacıqabulda vətəndaşları qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.*



Fevral ayının 20-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov tərəfindən Hacıqabul şəhərindəki Vergi ödəyicilərinə xidmət Mərkəzində Hacıqabul, Şirvan, Saatlı və Neftçala rayonlarının sakinləri üçün növbəti qəbul keçirilmişdir.

Qəbulda vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, POS-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılmışdır.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını ifadə etmişlər.

# Yanvar ayında vergi orqanlarına daxil olmuş müraciətlərin statistikası

Ay ərzində vergi orqanlarına 8189 müraciət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,2% çoxdur. Müraciətlərdən 97,5%-i ərizə, 2,3%-i şikayət, 0,2%-i təklif olmuş, 25 müraciətin icrası xüsusi nəzarətə götürülmüşdür.

Müraciətlərin 40,9%-i kameral vergi yoxlamaları, 32,5%-i müxtəlif arayışların alınması, 7,2%-i vergi borcları, 4,2%-i səyyar vergi yoxlamaları, 1,3%-i operativ vergi nəzarəti, qalanları isə digər məsələlərlə bağlı olmuşdur.

Ümumilikdə müraciətlərin 55,7%-i tam, 0,4%-i qismən həll olunmuş, 13,6%-i barədə müvafiq izahatlar verilmişdir.

Yanvar ayında nazirliyin aparatına 860 müraciət daxil olmuşdur.

Vergilər Nazirliyində müvafiq struktur bölmələrin rəhbərləri və ya digər vəzifəli şəxsləri tərəfindən 88 vətəndaş qəbul edilmiş, onlara qanunvericiliyin tələbinə uyğun kömək göstərilmiş və ya müvafiq izahatlar verilmişdir.

# Qanunu pozanlar cəzalandırılır

Bakı Vergilər Departamentinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən paytaxtın müxtəlif rayonlarında fəaliyyət göstərən bir neçə borclu vergi ödəyicisində əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir.

Nizami rayonunda «Koteks» MMC-yə məxsus geyim mağazasının fəaliyyəti araşdırılarkən onun 6338 manat, Ağadadaş Vahid oğlu Eldarova məxsus «Zambaiti Parati» adlı divar kağızı mağazasında 1965 manat, Nəsimi rayonunda fiziki şəxs Kamran Yaşar oğlu Məmmədova məxsus «Assorti» restoranında 2660 manat, fiziki şəxs Səbinə Vaqif qızı Şahinə məxsus «Turkuaz» mebel mağazasında isə 2297 manat vergi borcunun yarandığı müəyyən edilmişdir. Vergi ödəyicilərinə borcun ödənilməsi barədə bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilmədiyindən, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, vergi borcunun ödənilməsini təmin etmək məqsədilə əmlakın siyahıya alınması haqqında müvafiq qərarlar çıxarılmış və adları çəkilən obyektlərdəki əmlak qanunla müəyyən olunmuş qaydada siyahıya alınmışdır.

# Vergi və hüquq-mühafizə orqanları arasında əlaqələndirmə fəaliyyəti

Vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun əmrinə əsasən, «Vergi və hüquq-mühafizə orqanları arasında əlaqələndirmə fəaliyyətinin təşkili Qaydaları» təsdiq edilib.

Qaydalarda göstərilir ki, Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlərin aşkar olunması, qarşısının alınması və açılması, habelə vergi nəzarəti tədbirlərindən yayınan şəxslərin tapılması sahəsində vergi orqanları ilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti və digər hüquq-mühafizə orqanları arasında əlaqələndirmə fəaliyyəti təşkil olunacaq. Vergi orqanları ilə hüquq-mühafizə orqanları arasında əlaqələndirmə bir sıra istiqamətləri əhatə edəcək.

Əməkdaşlığa uyğun olaraq səyyar vergi yoxlamalarının və operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı Cinayət Məcəlləsinin 162-1-ci, 192-ci, 192-1-ci, 193-cü, 205-1-ci, 205-2-ci, 213-cü və 213-1-ci maddələrində nəzərdə tutulan cinayətlərlə bağlı aşkar edilmiş faktların sənədləşdirilməsi və aidiyyəti üzrə göndərilməsi təmin olunacaq.

Qanunsuz və yalançı sahibkarlıq fəaliyyəti ilə məşğul olma, saxta aksiz markalarını hazırlama, əldə etmə, satma, aksiz markası ilə markalanmalı olan malları marka olmadan satma, satış məqsədilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etməyə dair, habelə nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı barədə məlumatlarla bağlı Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə müraciət ediləcək.

Hər hansı cinayət işi və yaxud araşdırma aparılan materiallarla bağlı vergi orqanı Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə məlumatlandırılacaq.

Onu da qeyd edək ki, vergi əməkdaşları tərəfindən qaydaların tələblərinin pozulması intizam məsuliyyətinə səbəb olacaq.




# Forum qonaqların gözü ilə...

*Xəbər verdiyimiz kimi, 9-10 fevral tarixlərində Bakıda Azərbaycan Respublikasının Vergilər Nazirliyinin yaradılmasının 15-ci ildönümünə həsr olunmuş «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda IV Vergi Forumu keçirilmişdir. Tədbirdə Prezident Administrasiyasının, Milli Məclisin, Nazirlər Kabinetinin, digər dövlət orqanlarının, Milli Elmlər Akademiyasının, BMT-nin, Avropa Birliyinin, Dünya Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Rusiya, Türkiyə, Litva və Qazaxıstanın vergi xidməti orqanlarının, yerli bankların, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin, kütləvi informasiya vasitələrinin nümayəndələri və iş adamları iştirak etmişlər. Tədbir iştirakçılarından bəziləri qəzetimiz vasitəsilə öz təəssüratlarını bölüşüblər.*

***Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun:*** «Bu tədbirə dünyanın böyük dövlətlərindən önəmli şəxslərin, iş adamlarının qatılmasını çox əhəmiyyətli hadisə hesab edirəm. Forum vasitəsilə daha nələr edə biləcəyimizi müzakirə edib inkişaf üçün yollar axtarırıq. Güman edirəm ki, foruma qatılan nüfuzlu şəxslərin bu qədər yüksək səviyyədə qoyulan məsələləri müzakirə etməsinin çox böyük faydası olacaq. Azərbaycan müstəqillik əldə etdikdən sonra sürətli inkişaf yolu keçib. Qısa müddətdə nəhəng layihələrə imza atmısınız ki, bütün bu uğurlar Türkiyədə sevinclə qarşılanır. Türkiyə daim Azərbaycanın yanındadır, Azərbaycanla birlikdədir. Türkiyəli sahibkarlar da Azərbaycanla - qardaş ölkənin biznes nümayəndələri ilə işbirliyində maraqlı və həvəslidirlər. Azərbaycanın gələcəyinin çox parlaq olacağına inanırıq».

***

***Avropa Birliyinin (AB) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Malena Mard*** bildirmişdir ki, müasir dövrdə hər bir ölkənin dinamik iqtisadi inkişafı vergi sisteminin mükəmməl



formalaşdırılmasından, çevik və səmərəli fəaliyyətindən asılıdır. Azərbaycanın sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsində vergi orqanlarının üzərinə də çox mühüm vəzifələr düşür: «AB ilə Azərbaycan arasında son illər dinamik xarakter alan qarşılıqlı faydalı əməkdaşlıq vergiqoyma sahəsində də bir sıra mühüm layihələrin həyata keçirilməsinə, bu sahədə ən mütərəqqi təcrübələrin öyrənilməsinə və tətbiqinə imkan yaratmışdır. Qanunvericiliyin təkmilləşdirilməsi, inzibatçılığın mütərəqqi model və mexanizmlər əsasında qurulması, bilik menecmentinin tətbiqi baxımından Vergilər Nazirliyinin həyata keçirdiyi bir sıra layihələri dəstəkləyirik. İkitərəfli əməkdaşlığımızın nəticələri uğurlu olmuşdur».

Səfir hazırda Azərbaycanla AB arasında əməkdaşlığın yeni mərhələsinin başlandığını, «Cənub» qaz dəhlizi layihəsinin həyata keçirilməsi sayəsində əlaqələrin daha da möhkəmlənəcəyinə əminliyini ifadə etmişdir.

***

***Sahibkar Qəmər Hüseynova (Zaqatala):*** «İkinci dəfədir vergi forumunda iştirak edirəm. Məmnunuq ki, Azərbaycanın vergi sistemində dünya ölkələrinin qabaqcıl təcrübəsindən düzgün istifadə olunur. İndi sahibkarlar vergi əməkdaşları ilə birbaşa təmasa girmədən vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı bütün prosesləri asanlıqla həyata keçirə bilirlər. Bu, bizim üçün çox sevindirici haldır. Əvvəl bu sahədə çətinliklər çox idi. 20 illik təcrübəsi olan bir sahibkar kimi demək istəyirəm ki, Vergilər Nazirliyi bizim problemlərimizlə həmişə maraqlanır, müraciətlərimizə baxır və az vaxtda həllinə çalışır».

***

***Azərbaycan-Türkiyə iş adamları Birliyinin İdarə Heyətinin sədri Cemal Yangın:*** «Belə forumların keçirilməsini yüksək qiymətləndirirəm. Forumların ən böyük faydası odur ki, ayrı-ayrı qurumların köməyi ilə mövcud prosesləri təkmilləşdirmək, daha effektli variantlar aşkara çıxarmaq mümkün olur. Bəzi məsələlər təkcə vergi ödəyicisi ilə Vergilər Nazirliyi arasında həll oluna bilməz. Digər strukturları və onların nümayəndələrini dinlədikdə faydalı nəticə əldə edilir».

***

***Sahibkar Qadınlar Birliyinin sədri Zemfira Ağayeva:*** «Vergilər Nazirliyi artıq 4-cü ildir ki, Azərbaycanda vergi sisteminin mövcud durumu və gələcək perspektivləri ilə bağlı forum keçirir. Bunu müsbət bir addım kimi qiymətləndirirəm. Biz bu tədbirlərdə vergi qanunlarından, yeni təklif və layihələrdən xəbər tuturuq. Sahibkarların hansısa bir məsələ haqqında məlumatsızlığı iqtisadi biliklərin zəif olması ilə bağlıdır. Burada sahibkar kimi çox şeylər əldə edirik. Bilmədiyimiz məsələlərə aydınlıq gətirilir».

***

***Prezident Administrasiyasının nümayəndəsi Xıdır Qaralov:*** «Bu gün bizim dövlət strukturları içərisində həm kadr potensialına, həm də son illərdə yaratdığı möhkəm qanunvericilik bazasına görə ən kamil olanı Vergilər Nazirliyidir. Aparılan son islahatlar dövlət strukturları, eləcə də adi vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Nazirlik öz işini ölkə vətəndaşları ilə əlaqəli və səmərəli bir fəaliyyət üzərində qurur. Ölkəmizdə rəqabətqabiliyyətli vergi sistemi və inzibatçılığı, eləcə də müasirləşdirilmiş vergi menecmentinin yaradılması üçün xeyli zaman və əmək sərf olunub, bir sıra vacib əhəmiyyətli layihələr həyata keçirilib. Bu gün əminliklə deyə bilərik ki, ötən 15 il ərzində Azərbaycanda möhkəm vergi qanunvericiliyi, rasional vergi yükü olan sabit vergi sistemi yaradılmışdır».

***

***Konstitusiya Araşdırmaları Fondunun prezidenti, QHT-lərin antikorrupsiya şəbəkəsinin koordinatoru Əlməmməd Nuriyev:*** «Vergilər Nazirliyinin keçirdiyi forumlar ciddi mesajlarla müşayiət olunur. Vergi siyasətinin təkmilləşdirilməsi üzrə həm milli səviyyədə, həm də beynəlxalq təcrübə ilə bağlı müxtəlif fikirlər səslənir. Forumda gələcəkdə vergi siyasətinin hansı istiqamətdə inkişafı ilə bağlı geniş müzakirələr aparılır. Maraqlı tərəflərin fikirlərinin öyrənilməsi münasibətləri yaxınlaşdırır, gələcək qərarların qəbuluna təsir göstərir, icrası prosesində mühüm əhəmiyyət daşıyır. Bu gün çox aktual olan biznes və vergi partnyorluğu ilə bağlı məsələlərə də baxılan forumda vətəndaş cəmiyyətinin nümayəndələri iştirak edirlər ki, bu da təqdirəlayiqdir».

***

***Tacirlər və İstehsalatçılar Birliyinin sədri Sevgim Rəhmanov:*** «Ötüb keçən 15 ili gözümün önündən keçirirəm. Vergilər Nazirliyi 15 il addım-addım mükəmməlliyə doğru hərəkətdə olub. Sistemi, qanunu yaratmaq asandır, qanunun icra mexanizmini yaratmaq, onu həyata keçirmək lazımdır. Bu sahədə qazanılanları görməmək mümkün deyil.

2002-2003-cü illərlə müqayisədə bu gün vergi sistemi xeyli dəyişib və sahibkarla dövlət arasında olan anlaşılmaz vəziyyət aradan götürülüb. Bununla həm dövlət qazanır, həm də sahibkar. Bu gün sahibkar yaxşı bilir ki, vergini verməlidir, çünki onun ailəsinin, bütövlükdə cəmiyyətin rifahı bundan asılıdır».

***

***«Multimedia» Mərkəzinin prezidenti Osman Gündüz:*** «Hər il keçirilən vergi forumlarının ölkə iqtisadiyyatı, sahibkar-dövlət strukturu və vətəndaş cəmiyyətləri arasında münasibətlərin tənzimlənməsində rolu böyükdür. Artıq bu, ənənə halını alıb, bir platformaya çevrilib. Bizim hər il bir yerə yığışmağımızın əhəmiyyəti ondadır ki, burada bütün maraqlı tərəflər iştirak edir. Tək vergi mütəxəssisləri yox, hüquq, texnologiya və digər sahələrin diqqəti forumda cəmləşir. Ümid edirəm ki, vergi sahəsində elektronlaşma, texnoloji proqreslə baglı təcrübədən və ortaya qoyulan müzakirələrdən maraqlı sahələr də fayda götürəcəklər».

***

***Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov:*** «Azərbaycanın vergi xidməti son illər əsaslı modernləşmə prosesi keçmiş, texnoloji imkanları genişlənmiş, inzibatçılığı daha da təkmilləşmişdir. Vergilər Nazirliyi bütövlükdə ölkədə həyata keçirilən iqtisadi siyasətdə ən fəal iştirak edən, böyük rolu olan bir qurum, dövlət təşkilatıdır. Bu cür tədbirlər vergi sistemində edilmiş dəyişikliklər, gələcək planlar və qarşıda duran vəzifələrlə bağlı müzakirələr, fikir mübadilələri aparmağa şərait yaradır. Ümid edirəm ki, vergi sisteminin daha da təkmilləşdirilməsi qeyri-neft sektorunun, sabit büdcə dəyərlərinin artırılması yollarının axtarılması istiqamətində faydalı olacaq».

***

***Veteran vergi işçisi Hüseynağa Abdullayev:*** «18 il vergi sistemində işləmişəm, bu sahədə təcrübəm çoxdur. Forumda müzakirə olunan məsələlər ətrafında geniş diskussiyalar aparılmasının, tədbir iştirakçılarının vergi qanunvericiliyi və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı müxtəlif təkliflərlə çıxışlarının səmərəli nəticəsi olacağına çox inanıram».

***

***Veteran vergi işçisi Vəzifə Əhmədova:*** «Müstəqil Azərbaycan dövləti yaranandan sonra vergi sistemi də təkmilləşdirilməyə və bu sistemdə bir sıra yeniliklər edilməyə başlandı. Bu gün mən ölkəmizdə belə bir vergi sisteminin olması ilə fəxr edirəm. Azərbaycanın vergi sistemi özünün xüsusi nümunəsini yaradıb, inkişaf edib, mükəmməl kadrlar yetişib. AVİS sisteminin yaranmasını isə xüsusi qeyd etmək istəyirəm».

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycan və Qazaxıstan arasında işgüzar münasibətlər genişlənir



*Vergilər Nazirliyinin yaradılmasının 15-ci ildönümünə həsr olunmuş «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda 4-cü Vergi Forumunda dünyanın bir çox ölkələrinin vergi administrasiyalarının nümayəndələri iştirak edirdilər. Onlardan biri - Qazaxıstan Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Daulet Yerqojin qəzetimizə müsahibə vermişdir.*

***- Cənab Yerqojin, Bakıda keçirilən Vergi Forumunun əhəmiyyətini nədə görürsünüz?***

- Hər il Azərbaycanın paytaxtı Bakıda keçirilən bu tədbiri unikal hadisə hesab edirəm. Bu, hər şeydən əvvəl, siyasi nöqteyi-nəzərdən əhəmiyyətlidir. Beynəlxalq əməkdaşlığa yönəldilmiş təşəbbüs kimi Azərbaycanı, onun uğurlarını bütün dünyaya tanıdır. Forum vergi xidməti rəhbərləri səviyyəsində təşkil olunduğu üçün qarşılıqlı təcrübə baxımından da faydalıdır. Builki forum vergi sahəsində aktual olan bir sıra məsələlərə müxtəlif yanaşmaların və yeni fikirlərin ortaya qoyulması ilə yaddaqalandır.

Forumun daha bir əhəmiyyətli cəhəti bu sahədə çalışan insanların bir araya gəlməsidir. Mən 2008-ci ildən vergi sistemində çalışıram və həmkarlarım arasında dünyanın hər yerində, eləcə də Azərbaycanda çoxlu dostlarım var. Burada bir çox köhnə dostlarımla, həmkarlarımla görüşüb danışmaq imkanı əldə etdim. Bu görüşlər zamanı biz müxtəlif mövzularda fikir mübadiləsi aparır, müasir texnologiyalar, onların vergi sisteminə tətbiqi, inzibatçılığın yeni metodlarını araşdırmaqla bağlı çoxlu mülahizələr yürüdür, təcrübələri götür-qoy edirik.

Dünya hər gün dəyişir, inkişaf edir. Vergi sistemi ilə bağlı məsələlər də dəyişir. Məsələn, əlavə dəyər vergisi, inzibatçılığın gücləndirilməsi ilə bağlı tətbiq olunan qanunlar hamımızı maraqlandırır. Beynəlxalq səviyyədə ƏDV-yə vergi sisteminin inkişafı və yeniləşməsi baxımından vergi harmonizasiyasının əsas aləti kimi baxılır. Vergi harmonizasiyası vahid Avropa iqtisadi məkanında yaranmış və dövlətlərarası regional əməkdaşlıq zamanı inkişaf etmişdir. Bu qlobal məsələnin həlli məqsədilə ƏDV-nin və digər dolayı vergilərin hesablanması, dərəcələrin eyni həddə qəbul edilməsi yolunda daim axtarışlar gedir, işlər aparılır.

Vergi Forumu bütün bu yeniliklərin, fikirlərin bölüşdürülməsi, ortaya yeni ideyaların çıxması üçün bir meydan açır, lazımi şərait yaradır. Biz dünyanın müxtəlif yerlərindən foruma qatılan iştirakçıların çıxışlarından əldə etdiyimiz nəticələri, ideya və təklifləri öz ölkəmizə qayıtdıqdan sonra mütləq müzakirə edəcəyik.

***- Azərbaycanla Qazaxıstanın arasında ikitərəfli iqtisadi münasibətləri inkişafını necə qiymətləndirirsiniz?***

- Azərbaycanla Qazaxıstan türkdilli qardaş ölkələrdir. Dostluğumuzun çox qədim tarixi vardır. Yüzillər boyu Azərbaycanla Qazaxıstan İpək yolunun - böyük karvan marşrutunun üstündə yerləşib. Bu gün qədim Bakıda o dövrlərin yadigarı - tarixin canlı şahidi «Karvansara»nı gördüm. Çox gözəl qorunub saxlanılıb. Dövlətin tarixi abidələrə belə qayğısını, hörmət və ehtiramını görmək çox xoşdur.

Yüzillərdən gələn dostluq, qardaşlıq münasibətlərimiz bu gün də davam edir. Ölkələrimiz arasında həm vergi, həm də gömrük xidməti sahəsindəki münasibətlər beynəlxalq əməkdaşlığımızı, mövcud ticarət əlaqələrini daha da inkişaf etdirmək imkanı verir.

Bizi həm də çox yaxın məsafə, qonşuluq münasibətləri birləşdirir. Bakı limanı ilə Aktau arasında yüklərin çox sürətlə mənzil başına çatdırılması mümkündür. Qazaxıstanda çalışan çoxlu azərbaycanlı iş adamlarını tanıyıram. Azərbaycanda da bizim biznes təmsilçilərimiz az deyil. Burada taxıl terminalımız fəaliyyət göstərir. Bu gün Qazaxıstan Azərbaycanın əsas taxıl təchizatçısıdır və əlaqələrimiz bundan sonra da davam edəcək.

***- Sizcə, Azərbaycan və Qazaxıstan vergi strukturları arasında əlaqələr necə inkişaf edir? Münasibətlərin gələcək perspektivləri ilə bağlı nə deyə bilərsiniz?***

- Bu gün azərbaycanlı həmkarlarımızdan çox şey öyrənirik. Əlavə dəyər vergisi, elektron vergi hesab-fakturası, vergi və rüsumların elektron formada ödənilməsi məsələləri ilə bağlı görüb-götürəcəyimiz, Qazaxıstanın vergi sistemində tətbiq edəcəyimiz yeniliklər çoxdur. Məsələn, Azərbaycan təcrübəsinə əsaslanmaqla bu ildən qanunlarda dəyişikliklər aparmaq istəyirik: gələcəkdə bir çox müəssisələrimizin bütünlüklə elektron hesab-fakturaya keçəcəyi gözlənilir. Bu, vergi sistemində şəffaflığın artırılması və vergidən yayınma hallarının aradan qaldırılması üzərində nəzarətin gücləndirilməsinə gətirib çıxaracaq. Bu həm də ona şərait yaradacaq ki, azərbaycanlı həmkarlarımızdan elektron hesab-faktura aldıqda biz onlardan ənənəvi kağız hesab-müqavilə tələb etməyəcəyik, yəni sistemlər uyğunlaşdırılacaq. Bu isə ölkələrimiz arasında ticarət və biznes əlaqələrinin sadələşdirilməsi baxımından çox faydalı olacaq.

***- Azərbaycanın paytaxtı Bakı haqqında təəssüratlarınızı bilmək istərdik...***

- Bu mənim Bakıya ilk gəlişim deyil. Səkkiz il əvvəl rəsmi dəvətlə Bakı limanında taxıl terminalının açılış mərasiminə qatılmışdım. O vaxtdan az müddət keçsə də, şəhərinizdə çox böyük dəyişikliklər gördüm. Bakı fantastik dərəcədə dəyişib. Hər yerdə müasirlik, təmizlik müşahidə olunur, parklar, körpülər və yeni tikililər şəhərə möhtəşəm gözəllik verir. Dəyişməyən bircə sakinlərdir: həmişəki kimi gülərüz, qonaqpərvər və xoşrəftar. Ən başlıcası, Bakı sakinlərində müşahidə etdiyim vətənpərvərlik daha çox diqqətini cəlb etdi.

Azərbaycan dünyaya öz qeyri-adi istedadı ilə tanınan bir çox şəxsiyyətlər, məşhur insanlar bəxş edib. Bu baxımdan, Bakını təkcə neft səltənəti deyil, həm də regionun mədəniyyət mərkəzi adlandırmaq olar.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# «195» Çağrı Mərkəzinin təqdimat mərasimi keçirilib

Fevralın 24-də Vergilər, Maliyyə, İqtisadiyyat və Sənaye, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərini, Dövlət Gömrük Komitəsini və Dövlət Sosial Müdafiə Fondunu əhatə edən «195» Çağrı Mərkəzinin fəaliyyətə başlaması ilə əlaqədar təqdimat mərasimi keçirilib.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov bu layihənin icrasına 2010-cu ildən start verildiyini deyib. İdarə rəisi qeyd edib ki, «Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə 2009-2012-ci illər üçün strateji plan»da nazirliyin «195» nömrəli telefon-məlumat xidmətinin və ayrı-ayrı dövlət orqanlarındakı analoji xidmətlərin bir telefon məlumat xidmətinə inteqrasiya olunması, vahid Çağrı Mərkəzinin təşkili üçün zəruri tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu.

Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəis müavini Məhəmməd Yunusov «Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili» mövzusunda təqdimatla çıxış edərək, «195» Çağrı Mərkəzinin yaradılması və onun icrası sahəsində görülmüş işlər barədə məlumat verib. Bildirilib ki, layihə çərçivəsində mərkəzə daxil olan dövlət qurumlarında xidmət zalları yaradılıb, əməkdaşlar təlimlərə cəlb edilib. «195» Çağrı Mərkəzi üzrə xüsusi proqram təminatı hazırlanıb və müvafiq serverlər vasitəsilə qurumlar bir-birinə inteqrasiya olunublar.

Tədbirdə qeyd edilib ki, «195» Çağrı Mərkəzi bu il fevralın 4-dən əhalinin, o cümlədən sahibkarların sualların operativ və keyfiyyətli cavablandırılması, şikayətlərinin, habelə təkliflərinin qəbulu məqsədilə fəaliyyətə başlayıb. Hazırda onun xidmətlərindən istifadə etmək üçün birbaşa 195 nömrəsinə zəng edərək, səsli menyunun köməkliyi ilə və ya müvafiq düymələrdən birini seçərək birbaşa Vergilər, İqtisadiyyat və Sənaye, Maliyyə, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə, Dövlət Gömrük Komitəsinə və Dövlət Sosial Müdafiə Fonduna müraciət edilə bilər.



«Digital Services» MMC-nin nümayəndəsi Səbinə Zamanova müasir Çağrı Mərkəzinin təşkili ilə bağlı fikirlərini bölüşüb: «Bu gün təqdimatına toplaşdığımız Çağrı Mərkəzinin funksiyalarından bəhrələnən ölkələr çoxdur. Biz də mövcud təcrübədən yararlanmışıq. Nümunəvi xidmətdən sahibkarlarımız, vətəndaşlarımız rahatlıqla istifadə edəcəklər. Ancaq hazırkı dövrdə bu xidmət tək «çağrı» ilə məhdudlaşmır. İndi burada böyük bir şəbəkə qurulub, xidmət sahələrinin sayı gündən-günə artır. Odur ki, yaxın illərdə bu xidmətin başqa bir əlaqə formasında fəaliyyət göstərəcəyini eşidəndə təəccüblənməyin».

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz bildirib ki, universal Çağrı Mərkəzinin yaradılması dövlət qurumlarının əlçatan olması üçün irəliyə doğru bir addımdır. Bu baxımdan da dövlət qurumu və vətəndaş arasında münasibətin daha effektiv qurulmasında elektron xidmətin əlçatanlığının öz yeri var: «Hələlik bu mərkəzə 7 qurum qoşulub. Bunlar insanların daha çox və tez-tez üz tutduqları qurumlardır. Bu xidmətin Azərbaycan üçün universallıqdan qloballığa keçməsinə ehtiyac var. Fikrimcə, Çağrı Mərkəzinə qoşulanların sayının artması sahibkarların işini xeyli asanlaşdıracaq».

Tədbirdə çıxış edən dövlət qurumlarının nümayəndələri isə «195» Çağrı Mərkəzinin yaradılmasında başlıca məqsədin vətəndaşlara mütərəqqi xidmət və dövlət dəstəyinin təmin edilməsi, dövlət orqanlarının hər zaman əlçatan olması və vətəndaş məmnunluğunun yüksəldilməsi, ölkədə əlverişli biznes mühitinin formalaşmasından ibarət olduğunu bildiriblər.

**AYTƏN**

# «Asan ödəniş» terminalları istifadəyə verilib

Bu günlərdə 2 və 3 saylı Bakı «ASAN xidmət» mərkəzlərində «ASAN ödəniş» sistemi çərçivəsində terminallar vətəndaşların istifadəsinə verilib. Bununla da vətəndaşlar inzibati cərimələr və məhkəmə qərarlarının icrası üzrə ödənişləri terminallar və www.asanpay.az portalı vasitəsi ilə həyata keçirə bilərlər.

İlkin mərhələdə yalnız yol hərəkəti qaydalarının (YHQ) pozulmasına görə cərimələrin ödənişi mümkündür. «ASAN ödəniş» terminalları vətəndaşlara ödənişin qəbulu və qalıq pulun qaytarılması zamanı kağız və qəpik pullardan istifadəyə imkan verir.

Qeyd edək ki, «ASAN ödəniş» sistemi «ASAN xidmət» mərkəzlərində həyata keçirilən xidmət növlərinin və elektron xidmətlərin genişləndirilməsi və «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 fevral 110 nömrəli fərmanına əsasən yaradılıb.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi öhdəliyi və onun yerinə yetirilməsi

Mahiyyət etibarilə vergi öhdəliyi anlayışı vergi ödəyicisinin vergini ödəmək vəzifəsi ilə eyni məna daşıyır. Bununla belə, vergi ödəyicisinin hər hansı bir vergini ödəmək vəzifəsi vergilər haqqında normativ-hüquqi aktlarla müəyyən olunur və vergi öhdəliyi yalnız vergi müəyyən edildiyi və hesablandığı halda yaranır. Ümumiyyətlə, vergini ödəmək vəzifəsi hüquqi və fiziki şəxslərin mülkiyyətində olan pul vəsaitlərinin dövlət tərəfindən alınması zamanı meydana çıxan iqtisadi münasibətləri əks etdirir.

Vergi nəzəriyyəsində vergi öhdəlikləri, bir tərəfdən, dövlət tərəfindən müəyyən olunmuş vergiləri tənzimləyən hüquq normalarının məcmusunu, digər tərəfdən isə vergilərin hesablanması və ödənilməsi zamanı meydana çıxan iqtisadi münasibətləri özündə ifadə edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergi ödəyicilərinin vergi öhdəlikləri vergi qanunvericiliyi ilə müəyyən olunmuş vergiləri ödəmək vəzifəsi kimi təsbit edilmişdir. Vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsinin əsasları, öhdəliyin yerinə yetirilməsi qaydası və şərtləri Vergi Məcəlləsində öz əksini tapmışdır.

Beynəlxalq təcrübədə vergi öhdəliyinin yaranması və yerinə yetirilməsi məsələləri araşdırılarkən aşağıdakılara daha çox diqqət yetirilir:

- vergi öhdəliyi mülki-hüquqi öhdəliklər nəzərə alınmaqla qurulur, lakin ona bu öhdəliklərdən hüquqi cəhətdən asılı olmayan iqtisadi münasibət kimi baxılır. Vergi öhdəlikləri icbari vergi hüququ normaları ilə tənzimlənir;
- vergi öhdəliklərinə vergi qanunvericiliyi ilə bağlı meydana çıxan xüsusi öhdəlik kimi baxılır. Bununla yanaşı, mülki hüququn öhdəliklərə dair normaları vergi öhdəliklərinə də şamil edilir;
- vergi öhdəliklərinə vergi ödəyicisinin əmlak və prosedur vəzifələrini birləşdirən fövqəladə mürəkkəb münasibət kimi baxılır.

Ümumilikdə götürsək, vergi ödəmək vəzifələrinə dövlətin və bələdiyyələrin maliyyə təminatı məqsədilə hüquqi və fiziki şəxslərin sərəncamında olan pul vəsaitlərinin vergi şəklində dövlət və yerli büdcələrə köçürülməsi üçün onların qanunla vəzifələndirilməsi kimi baxılır.

Vergilərin vaxtında və tam məbləğdə büdcəyə ödənilməsinin təmin edilməsi üçün borcların məcburi qaydada ödənilməsi metodları tətbiq olunduqda, bir qayda olaraq, vergi orqanları vergi ödəyicilərinə bu barədə xəbərdarlıq göndərir. Bir çox hallarda verginin yalnız vergi orqanının xəbərdarlığından sonra ödənilməsi, əslində, vergi ödəyicisində maliyyə vəsaitinin kifayət qədər olmamasına görə deyil, vergi ödəmək intizamının aşağı olması səbəbindən baş verir. Belə olan hallarda, gecikdirilmiş vergilərin məcburi qaydada alınmasının bir üsulu kimi, vergi ödəyicisinin bank hesabından pul vəsaitinin silinməsi barədə bank idarəsinə icra sənədi olan sərəncamın qoyulmasından istifadə edilir. Bəzi hallarda isə ödənilməmiş vergilərin alınması borclu vergi ödəyicisinin əmlakının satışı hesabına həyata keçirilir.

Təcrübədə vergi borcunun üçüncü şəxslərin vergi ödəyicisinə olan borcu hesabına alınması da tətbiq edilir. Üçüncü şəxslərin vergi ödəyicisinə borcu, əsasən, göndərilmiş malların, görülmüş işlərin dəyərinin vaxtında ödənilməsi intizamının pozulması nəticəsində baş verir.

Avropa ölkələrində vergi ödəyicisinin borcu yarandıqda ya vergi ödəyicisinə borcların məcburi qaydada ödənilməsinin təmin olunacağı barədə bildiriş göndərilir və yaxud müəyyən olunmuş hallarda vergi borcunun ödənilməsi müddətinin uzadılması həyata keçirilir. Bundan başqa, əgər vergi orqanı vergi borcu olan şəxsin əmlakını müsadirə etmək qərarına gəlmişdirsə, o, vergi ödəyicisini 30 gün qabaqcadan məlumatlandırır. Kanadada mənfəət vergisinin ödəyicisi olan iri vergi ödəyicisi tərəfindən vergi borcunun məcburi alınmasından apelyasiya şikayəti verildiyi halda, mübahisə edilən məbləğin yarısı qabaqcadan, qalan məbləğ isə ona hesablanmış faizlərlə birlikdə mübahisə vergi orqanının xeyrinə həll edilərkən tutulur. Məhkəmənin qərarı vergi ödəyicisinin xeyrinə çıxarıldıqda isə o, bütün məbləğin və hesablanmış faizlərin qaytarılmasını tələb etmək hüququ qazanır. İngiltərədə vergi borcunun tutulması apelyasiya şikayətinə baxılması zamanı dayandırılır, məhkəmə qərarından sonra isə borcun və faizlərin tutulması həyata keçirilir.

Beynəlxalq təcrübədə vergi öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi üsullarından biri kimi, əmlakın girov götürülməsi təcrübəsindən geniş istifadə olunur. Azərbaycan Respublikasının Vergi Məcəlləsində də vergilərin ödənilməsi müddətinin 1 aydan 9 ayadək uzadılması hallarında (verginin bir dəfəyə ödənilməsi iflasa uğramaq təhlükəsi yaratdıqda, təbii fəlakət nəticəsində vergi ödəyicisinə zərər dəydikdə) ödənilmə müddəti uzadılmış öhdəliklərin yerinə yetirilməsinə zəmanət verilməsi kimi vergi ödəyicisinin əmlakının girov qoyulması nəzərdə tutulmuşdur.

Vergilərin tam yığılmasının təmin olunması üçün vergi öhdəliklərinin yerinə yetirilməsi məsələləri iqtisadçılar tərəfindən daim tədqiq olunsa da, bu məsələ gələcəkdə onun daha yaxından öyrənilməsini və səmərəli həll yollarının tapılmasını tələb edir. Bu gün Azərbaycanda da vergi inzibatçılığının və vergi qanunvericiliyinin təkmilləşdirilməsinə yönəldilmiş tədbirlərdə əsas yerlərdən birini vergi öhdəliklərinin tam və vaxtında yerinə yetirilməsinin təmin edilməsinə yönəldilmiş tədbirlər tutur.



## Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Torpaq vergisi

***Müharibə veteranı kimi mülkiyyətimdə olan və Bakı şəhərində yerləşən torpaq sahəsinə görə vergini hansı qaydada ödəməliyəm?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 203-cü maddəsinə müvafiq olaraq, torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır. Fiziki şəxslər torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra bələdiyyələrdə 1 ay ərzində uçota durmalıdırlar.

VM-in 204-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir.

VM-in 206-cı maddəsinə uyğun olaraq, kənd təsərrüfatı torpaqları istisna olmaqla, Bakı şəhərində, habelə onun qəsəbə və kəndlərində yerləşən torpaq sahəsinin hər 100 kvadratmetrinə görə sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üçün həmin torpağın sahəsi 10000 $m^2$-dək olduqda 10 manat, 10000 $m^2$-dən yuxarı olduqda isə 20 manat, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üçün həmin torpağın sahəsi 10000 $m^2$-dək olduqda 0,6 manat, 10000 $m^2$-dən yuxarı olduqda isə 1,2 manat vergi dərəcəsi tətbiq olunur.

VM-in 207.2-ci maddəsinə əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

Torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları VM-in 208-ci maddəsi ilə müəyyən edilmişdir. Həmin maddəyə əsasən, torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

Torpaq sahəsinin yerləşdiyi bələdiyyə tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır. Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtı üzrə torpağın sahibi tərəfindən ödənilir. Fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dövlət Statistika Komitəsinin məlumatlına görə, bu ilin yanvar ayında **3,6 milyard manatlıq** ümumi daxili məhsul istehsal edilmiş və bu göstərici keçən ilin müvafiq dövrünün səviyyəsindən **4,4%** yüksək olmuşdur. Əlavə dəyərin **48%-i** məhsul istehsalı sahələrində, **42%-i** xidmət sahələrində istehsal olunmuş, **10%-i** isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür.
- 2014-cü ildə ölkənin hüquqi və fiziki şəxsləri xarici dövlətlərlə **31 milyard dollar** məbləğində ticarət əməliyyatları həyata keçirmişlər.
- Yanvar ayında ölkənin tikinti kompleksində **682,7 milyon manat** məbləğində, yaxud ötən ilin müvafiq dövründə olduğundan **2,9%** çox vəsaitdən istifadə edilmiş və onun **502,2 milyon manatı** tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin **259,4 milyon manatı** yerli mənbələrdən daxil olmuşdur.
- Ötən il ərzində ölkənin maliyyə-kredit təşkilatları hüquqi və fiziki şəxslərə **18,5 milyard manat** məbləğində kredit ayırmışlar.

# Nazirlər Kabinetinin dövlət büdcəsi və iqtisadi inkişafla bağlı sərəncamı



2016-cı il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin Azərbaycan Prezidentinə vaxtında təqdim edilməsi məqsədi ilə Nazirlər Kabinetinin qəbul etdiyi sərəncama görə, Maliyyə Nazirliyi ölkənin növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini 2015-ci il sentyabrın 15-dək, İqtisadiyyat və Sənaye Nazirliyi isə növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini, toplu maliyyə balansını 2015-ci il sentyabrın 10-dək, həmçinin digər sənədləri hazırlayıb Nazirlər Kabinetinə təqdim etməlidirlər.

Sərəncama əsasən, növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının, dövlət büdcəsi layihəsinin və toplu maliyyə balansının hazırlanması üçün zəruri statistik məlumatların İqtisadiyyat və Sənaye Nazirliyinə, Maliyyə Nazirliyinə, Vergilər Nazirliyinə və digər əlaqədar təşkilatlara mütəmadi olaraq Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməsi təmin olunmalıdır.

Vergilər Nazirliyinə, Dövlət Gömrük Komitəsinə və dövlət büdcəsinin gəlirlərini təmin edən digər orqanlara dövlət büdcəsinin tərtibi və icrası prosesi üçün gəlirlərlə bağlı zəruri olan qanunvericilik aktlarında müvafiq dəyişikliklər edilməsi məqsədi ilə təkliflərini 2015-ci il martın 1-dək Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

Sərəncamda Dövlət Sosial Müdafiə Fonduna və Azərbaycan Respublikasının Dövlət Neft Fonduna növbəti büdcə ili və gələn üç il üçün öz büdcə layihələrinin ilkin variantını 2015-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını isə 2015-ci il iyulun 1-dək İqtisadiyyat və Sənaye Nazirliyinə və Maliyyə Nazirliyinə təqdim etmək tapşırılıb.

Maliyyə Nazirliyi 2016-cı il və sonrakı üç il üçün dövlət büdcəsinin və icmal büdcənin proqnozunun (gəlir, xərc və kəsir) ilkin ortamüddətli göstəricilərini 2015-ci il aprelin 10-dək, dəqiqləşdirilmiş variantını 2015-ci il sentyabrın 5-dək, dövlət büdcəsində dövlət investisiya xərclərinin ilkin həcmini 2015-ci il martın 31-dək, dəqiqləşdirilmiş məbləğini isə 2015-ci il iyulun 20-dək İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim etməlidir.

İqtisadiyyat və Sənaye Nazirliyi 2015-ci il dəqiqləşdirilmiş, 2016-cı il və sonrakı üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin, ümumi və əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun 2016-cı il üçün ilkin proqnozlarını 2015-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını və növbəti il üçün dövlət büdcəsinin layihəsi ilə uyğunlaşdırmaq məqsədi ilə dövlət investisiya proqramının layihəsini 2015-ci il avqustun 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidir.

Nəqliyyat Nazirliyi Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, «Avtomobil Yolları» Məqsədli Büdcə Fondunun, Maliyyə Nazirliyi «Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondu»nun növbəti büdcə ili və gələn üç il üçün büdcə layihələrinin ilkin variantını 2015-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını isə 2015-ci il iyulun 1-dək İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim etməlidir.

Qeyd edək ki, 2015-ci ilin dövlət büdcəsinin gəlirləri 19,438 milyard manat, xərcləri isə 21,1 milyard manat həcmində təsdiq edilib.

**RƏŞAD**

# Bu ildən bəzi qiymətli metallara aksiz tətbiq edilir

2015-ci ilə qədər idxal edilən aksizli malların sıyahısına yalnız spirtli içkilərin bütün növləri, tütün məmulatları, neft məhsulları, minik avtomobilləri, idman yaxtaları və istirahət üçün yaxtalar daxil idi.

Bu ilin əvvəlindən həmin siyahıya platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz da daxil edilmişdir. Bununla əlaqədar olaraq, Vergi Məcəlləsinin 185.1-ci, 185.2-ci (1-ci bəndi), 188.1.1-ci, 190.2-ci, 190.3.1-190.3.7-ci və 190.4-cü maddələrinə müvafiq dəyişiklik edilmiş, 185.2-ci və 190.1-ci maddələrinə yeni bəndlər, 188.1.5-ci və 190.3.8-ci yeni maddələr əlavə olunmuşdur. Məcəlləyə yeni əlavə və dəyişikliklərə əsasən, fiziki şəxsin fərdi istehlakı üçün 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın idxalı aksizdən azaddır. Tutulacaq verginin məbləği platinin hər qramına, qızılın və ondan hazırlanmlş zərgərlik və məişət məmulatlarının hər troya unsiyasına, habelə bərkidilmiş almazın hər karatına görə müəyyənləşdiriləcək. Bununla yanaşı, fiziki şəxslərin gətirdiyi 20 qram qızıl və qızıl zərgərlik və ya məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almaza vergi tətbiq edilməyəcək. Azərbaycan Respublikası Mərkəzi Bankının aktivlərində yerləşdirmək üçün idxal edilən qızıl, platin, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazlar, eləcə də Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirmək üçün idxal edilən qızıla da aksiz tətbiq olunmayacaq.

Qanuna əsasən, idxal zamanı yeni aksizli mallara qızılın min çəki vahidindəki miqdarı qədər - 375 olduqda aksiz dərəcəsi hər qrama görə 0,8 manat, 500 olduqda hər qrama görə 1 manat, 585 olduqda hər qrama görə 1,2 manat, 750 olduqda hər qrama görə 1,5 manat, 958 olduqda hər qrama görə 1,8 manat, 999 olduqda hər qrama görə 2 manat aksiz dərəcələri tətbiq ediləcək.

İdxal zamanı emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün aksiz dərəcəsi 200 manat olmaqla iki metodla hesablanacaq. Əgər idxal olunan almazın bir ədədinin miqdarı 1 karatdan aşağıdırsa, aksizin məbləği almazın karatının miqdarına mütənasib olaraq azaldılacaq. Almazın bir ədədinin miqdarı 1 karatdan yuxarı olsa, aksiz məbləği aksiz dərəcəsi ilə almazın faktiki miqdarının hasilinə aşağıdakı əmsallar tətbiq edilməklə hesablanacaq: 1 karatdan 2 karatadək olduqda - 2,0; 2 karatdan 3 karatadək olduqda - 3,0; 3 karatdan 4 karatadək olduqda - 4,0; 4 karatdan 5 karatadək olduqda - 5,0; karat 5-dən yuxarı olduqda - 10,0.

| 1000 çəki vahidində qızılın miqdarı | Hər qrama görə aksizin dərəcəsi |
|---|---|
| 375 | 0,8 manat |
| 500 | 1 manat |
| 585 | 1,2 manat |
| 750 | 1,5 manat |
| 958 | 1,8 manat |
| 999 | 2 manat |

| Almazın bir ədədinin çəkisi (karatı) | Aksizin dərəcəsinin əmsalı |
|---|---|
| 1 karatdan aşağı olduqda | 200 manat X faktiki çəki |
| 1-dən 2-dək olduqda | 200 manat X faktiki çəki X 2 əmsal |
| 2-dən 3-dək olduqda | 200 manat X faktiki çəki X 3 əmsal |
| 3-dən 4-dək olduqda | 200 manat X faktiki çəki X 4 əmsal |
| 4-dən 5-dək olduqda | 200 manat X faktiki çəki X 5 əmsal |
| 5-dən yuxarı olduqda | 200 manat X faktiki çəki X 10 əmsal |

Hesablama zamanı fiziki şəxsin fərdi istehlakı üçün idxal edilən 0,5 karat almazın aksiz vergisindən azad edilməsi nəzərə alınır.

**R.SADIQOV**

# BEPS layihəsi çərçivəsində seminar

Fevralın 2-dən 6-dək İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən Avstriyanın paytaxtı Vyana şəhərində «Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi (BEPS)» layihəsi çərçivəsində «Vergi müqavilələri, xüsusi məsələlər» mövzusunda seminar keçirilmişdir. Seminarda Macarıstan, Çexiya, Bolqarıstan, Gürcüstan, Rumıniya, Slovakiya, Pakistan, Hindistan və Nepalın vergi orqanlarının nümayəndələri, habelə Avstriya Maliyyə Nazirliyinin beynəlxalq vergi məsələləri üzrə məsləhətçisi professor Helmut Lukota iştirak etmişlər.

Tədbir zamanı BEPS üzrə əsas aspektlər, vergidən yayınma üsullarının aşkar edilməsi, rəqəmsal iqtisadiyyatın problemləri, seçilmiş hallar üzrə araşdırmalar, OECD modelinə təklif olunan dəyişikliklər, qeyri-maddi aktivlərin transfert qiymətləndirilməsi, ikitərəfli vergi müqavilələri və digər sahələr üzrə müzakirələr aparılmışdır.

Seminarda Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin rəisi Ülvi Yusifov və Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin Dövlət orqanları, bələdiyyələr və vergi ödəyiciləri ilə iş şöbəsinin əməkdaşı Əvəz Quliyev iştirak etmişdir.

# «ƏDV fırıldaqçılığına qarşı mübarizə: ən yaxşı təcrübə»

Fevralın 4-dən 6-dək Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Macarıstanın paytaxtı Budapeşt şəhərində «ƏDV fırıldaqçılığına qarşı mübarizə: ən yaxşı təcrübə» mövzusunda praktiki seminar keçirilmişdir.

Seminarın məqsədi vergidən yayınma sxemləri və bununla mübarizədə geniş tətbiq olunan qabaqlayıcı tədbirlər, Avropa Birliyinin direktivləri və digər tənzimləyici metodları barədə ətraflı müzakirələr aparmaq olmuşdur. Seminarda diqqət bir daha ƏDV-dən yayınma halları, bu sahədə olan hüquqi boşluqlar, vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin çoxsaylı tranzaksiyalara uyğun olaraq minimallaşdırılması kimi müxtəlif praktiki məsələ və misalların həllinə yönəldilmişdir.

Tədbirdə Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin Audit idarəsinin Xüsusi vergi rejimli müəssisələrin auditi şöbəsinin əməkdaşı Emin Vəliyev iştirak etmişdir.

# Fərdi uçot sistemində qeydiyyata alınanların sayı artır

*2006-cı il-dən tətbiq olunan «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, əmək pensiyaları fərdi hesaba toplanan pensiya kapitalına əsasən hesablanır.*

Bu isə pensiya məbləğini sosial sığorta haqlarının ödənilməsindən birbaşa asılı edir. Başqa sözlə desək, fərdi uçot ölkə qanunvericiliyinə uyğun əmək pensiyalarının və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasıdır. Ödənilmiş sosial sığorta haqlarının fərdi uçotunun aparılması məqsədilə Dövlət Sosial Müdafiə Fondu (DSMF) hər bir sığortaolunanı uçota alaraq, onun üçün unikal sosial sığorta nömrəsi olan fərdi şəxsi hesab açır...

Fevral ayının 1-nə olan statistikaya əsasən, DSMF tərəfindən yanvar ayında 17.417 sığortaolunana fərdi şəxsi hesab açılıb. Beləliklə, Azərbaycanda fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 2.993.735 nəfərə yüksəlib. DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 59,1%-i (1.768.396 nəfər) kişi, 40,9%-i (1.225.339 nəfər) isə qadındır.

DSMF-nin mətbuat xidmətindən verilən məlumatda qeyd edilir ki, fərdi şəxsi hesabı olanlar arasında 30-40 yaş arası sığortaolunanlar üstünlük təşkil edir. Göstərilən yaş kateqoriyalarına aid olan şəxslər ümumi sığortaolunanların 24,6%-ni, yəni 735.918 nəfərini əhatə edir. Bundan başqa, fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 22%-ni (658.637 nəfər) 30 yaşa kimi olan şəxslər, 21%-ni (631.124 nəfər) 40-50 yaş arası, 21,2%-ni (632.222 nəfər) 50-60 yaş arası şəxslər, 11,2%-ni (335.834 nəfər) 60 yaşdan yuxarı şəxslər təşkil edir.

Onu da qeyd edək ki, DSMF-nin fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin də sayı artıb. Fevralın 1-i tarixinə olan statistikaya əsasən, bir ay ərzində 150 nəfər əcnəbi vətəndaş qeydiyyata alınıb və nəticədə fərdi uçot sistemindəki əcnəbilərin sayı 22.663 nəfərə yüksəlib. Dövlət sosial sığorta sistemində fərdi şəxsi hesabı olan əcnəbilərin 89,06%-ni (20.188 nəfər) kişilər, 10,94%-ni (2475 nəfər) isə qadınlar təşkil edir. Ümumilikdə 104 ölkənin vətəndaşlarını əhatə edən əcnəbilər arasında ən yüksək say göstəricisi Türkiyə vətəndaşları üzrə müşahidə olunur: 12.083 nəfər. İkinci yerdə gələn Gürcüstan vətəndaşlarının sayı 2553 nəfərə, üçüncü yerdə gələn Rusiya Federasiyasının vətəndaşlarının sayı isə 1311 nəfərə çatıb. Sonrakı yerlərdə İran (875), Çin (757), Hindistan (624), Pakistan (467), Birləşmiş Krallıq (354), Ukrayna (257), Özbəkistan (238), Banqladeş (206), Almaniya (195), Filippin (193), Türkmənistan (184), ABŞ (171), Qazaxıstan (163), İtaliya (153), Koreya (143) və s. ölkələr gəlir.

**AYTƏN**

# Mərkəzləşdirilmiş kredit fondu şəffaflığı təmin edəcək

*Mərkəzi Bank (MB) ölkə iqtisadiyyatına kredit axınını sürətləndirmək və bu prosesə əlavə maliyyə mənbələri cəlb etməyi planlaşdırır*

Hazırda Azərbaycanda 40-dan çox bank və 10-a yaxın kredit ittifaqı olsa da, onların real sektoru kreditlə təmin etmək sahəsində fəaliyyəti dövləti qane etmir. MB real iqtisadiyyata ucuz və uzunmüddətli kreditlərin verilməsini artırmaq məqsədlə mərkəzləşdirilmiş kredit fondunun yaradılmasını nəzərdə tutur.

MB idarə heyətinin sədri Elman Rüstəmov bildirib ki, fondun yaradılması üçün hüquqi prosedurlara, maliyyə və texniki məsələlərin həllinə başlanılıb. Vurğulanıb ki, hər il dövlətin daxili imkanları hesabına banklara 300 milyon manat pul ayrılır, həmin vəsaitlər Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) xətti ilə güzəştli şərtlərlə sahibkarlara çatdırılır. Bu vəsaitlər dövlətin maliyyəsi olduğundan bankların resursları hesab edilə bilməz. Banklar bu prosesdə sadəcə müvəkkil kredit təşkilatı kimi çıxış edir və müəyyən limitdə komisyon haqqı tətbiq etməklə pul qazanırlar. Əslində bu, dövlətin kommersiya banklarının qazanc əldə etməsinə yaratdığı güzəştlərdən biridir. Amma banklar öz vəsaitlərini iqtisadiyyatın real sektoruna yönəltməkdən daha çox ticarətə, iaşə-məişət biznesinə və fərdi şəxslərə istehlak kreditlərinə yönəltməyə üstünlük verirlər.

İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) Sahibkarlığın inkişafı siyasəti şöbəsinin sektor müdiri Elçin İbrahimovun sözlərinə görə, dövlətə məxsus maliyyə resurslarının mərkəzləşdirilmiş qaydada xüsusi fond tərəfindən idarə edilməsi beynəlxalq təcrübədə geniş yayılmış modellərdən biridir. Avropa və Asiya ölkələrinin bir çoxunda özəl biznesin maliyyələşdirilməsi üçün dövlət zəmanət fondları vardır və onlar kommersiya bankları ilə paralel şəkildə iqtisadiyyata kredit qoyuluşları həyata keçirirlər.

İqtisadçı ekspertin sözlərinə görə, dövlət vəsaitlərinin xüsusi fond tərəfindən sahibkarlara çatdırılması təcrübəsi ölkəmizdə də 12 ildən artıqdır tətbiq olunur. 2012-ci ildən fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fonduna dövlət büdcəsindən hər il ayrılan vəsaitlər iqtisadiyyatın müxtəlif sahələrində çalışan sahibkarlara ən aşağı kredit faizləri ilə verilir. Ötən müddət ərzində sahibkarlara verilmiş iki milyard dollar məbləğində güzəştli kreditlər sayəsində sənaye və kənd təsərrüfatında istehsal və emal müəssisələri istifadəyə verilib, regionlarda 100 mindən çox iş yerinin yaradılması təmin olunub.

*Yeni maliyyələşmə institutunun yaradılması kreditlərin qaytarılma müddəti ilə bağlı problemlərin həlli üçün də faydalıdır*

Yeni maliyyələşmə institutunun yaradılması sahibkarları qayğılandıran əsas məsələlərdən biri olan kreditlərin qaytarılma müddəti ilə bağlı problemlərin həlli üçün faydalıdır. Sahibkarların banklardan kredit əldə etməklə bağlı müraciətləri əksər hallarda müsbət cavablandırılmır, özəl banklar onlara laqeydlik göstərirlər. Kommersiya banklarının verdiyi kreditlər daha çox 2-3 illik olur və qaytarılması sahibkarlar üçün bəzi hallarda çətinlik törədir. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən kreditlər isə uzunmüddətlidir. Ən əhəmiyyətlisi isə kreditlərin faiz dərəcələri ilə bağlıdır. Müvəkkil kredit təşkilatlarının fondun kreditlərinə tətbiq etdiyi illik faiz dərəcəsinin ən yüksək həddi kredit məbləğinin 6 faizindən artıq deyil. Yəni bu mexanizm özünü doğrultmuş ən sərfəli və işlək hesab olunur. SKMF ilə analoji maliyyə instutunun yaradılması kredit bazarında faiz dərəcələrinin aşağı salınmasına imkan yarada bilər. Gözləntilərə əsasən, faiz dəhlizi 4-7 civarında ola bilər. Ehtimal olunur ki, yeni kredit fondunun yaraılmasından sonra dövlətin biznesə maliyyə dəstəyi 2 dəfədən çox artacaq və ümumilikdə sahibkarlıq sektoruna güzəştli şərtlərlə ayrılan illik kreditin məbləği 600 milyon manatdan çox olacaq (hazırda təkcə SKMF tərəfindən sahibkarlara ildə 295 milyon manat güzəştli kredit verilir).

Yeni kredit fondu ilə bağlı gözlənilən ən mühüm yeniliklərdən biri də budur ki, vəsaitlər elektronlaşdırılmış qaydada, yəni POS-terminallar vasitəsilə əldə olunacaq. Bu amil kreditlərin verilməsində ilk növbədə şəffaflığın təmin olunması məqsədi daşıyır.

**Elbrus CƏFƏRLİ**

# İstehlakçı öz hüquqlarını bilməlidir

*Ölkədə istehlakçı hüquqları qanunvericiliklə tənzimlənir. Bu hüquqların pozulmasında təqsirli şəxslər mülki, inzibati və cinayət məsuliyyəti daşıyırlar.*

Qanunvericiliklə hər bir istehlakçıya malın keyfiyyətinə və təhlükəsizliyinə zəmanət almaq hüququ verilir. Qarşı tərəf də istehlakçını maraqlandıran malın qiyməti, istehlak xassələri, əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, eləcə də malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barədə istehlakçıya zəruri və düzgün məlumat verməyə borcludur. İstehlakçıların qanunvericilikdə nəzərdə tutulan hallarda lazımi keyfiyyəti olmayan, habelə insanların sağlamlığı üçün təhlükəli malların vurduğu zərərin ödənilməsinə, həmçinin öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət etmək hüququ var.



İstehlakçıların hüquqlarının və qanuni maraqlarının ticarət, ictimai iaşə, məişət və digər xidmət normalarına və qaydalarına riayət olunması məqsədilə dövlət nəzarəti tədbirləri həyata keçirilir. İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən istehlakçıların hüquqlarının etibarlı müdafiəsi, istehlak bazarının keyfiyyətsiz və təhlükəli mallardan qorunması ilə bağlı bir çox tədbirlər görülür. Xidmətin təşkilatçılığı ilə istehlakçıların hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə tədbirləri, müvafiq dövlət qurumlarının, ictimai təşkilatların, sahibkarların, kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə seminar və konfranslar keçirilir. Maarifləndirmə tədbirləri çərçivəsində 2014-cü ildə və bu ilin əvvəllərində istehlakçıların maarifləndirilməsi məqsədilə 18 adda 100 minə yaxın buklet, istehlakçıların hüquqlarının qorunması sahəsində sahibkarların vəzifələrinə dair 6 adda 6 mindən artıq yaddaş kitabçası hazırlanaraq paylanıb.

İstehlakçıların hüquqlarının etibarlı müdafiəsinin təmin olunması, istehlak bazarının keyfiyyətsiz və insan sağlamlığı üçün təhlükəli mallardan qorunması məqsədilə Dövlət Xidməti tərəfindən maarifləndirmə tədbirləri ilə yanaşı, inzibati tədbirlər də həyata keçirilir. İstehlak bazarında mənşəyi məlum olmayan, saxlama müddəti ötmüş, etiketlənməsi, keyfiyyət və təhlükəsizlik göstəriciləri normativ sənədlərin tələblərinə uyğun olmayan ərzaq və qeyri-ərzaq malları satışdan çıxarılır.

Qeyd edək ki, istehlakçılar hüquqlarının pozulması halları ilə rastlaşdıqda İqtisadiyyat və Sənaye Nazirliyinin 195-2 Telefon Məlumat Mərkəzinə, Antiinhisar Siyasəti və və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin 498-15-01 və 498-15-04 nömrəli telefonlara, nazirliyin internet saytı və «Facebook» səhifəsi vasitəsilə məlumat verə bilərlər.

**A.NƏBİYEVA**

# Milli Məclisdə bələdiyyələrin fəaliyyəti müzakirə olunur

Milli Məclisin Regional məsələlər komitəsinin iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi, «Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında» və «Bələdiyyə qulluğu haqqında» Qanunda dəyişikliklər edilməsi barədə» qanun layihələri müzakirə edilib.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin sədri Mehdi Səlimzadə iclasda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı məruzə ilə çıxış edib. Bildirilib ki, respublikamızın ictimai-siyasi həyatındakı dinamik inkişaf prosesi 2014-cü ildə də davam etdirilib, əldə olunan nəticələr bələdiyyələrin də fəaliyyətinə öz müsbət təsirini göstərib. Bələdiyyələrin əldə etdikləri nailiyyətlər onların əhali arasında nüfuzunun artmasına səbəb olub. Bu, 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində də əyani təsdiqini tapıb. Digər tərəfdən, gənclərin və qadınların bələdiyyələrin fəaliyyətinə marağı artıb. Onlar seçkilərdə daha fəal iştirak ediblər.

Vurğulanıb ki, 2014-cü ildə bələdiyyələrlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bir çox tədbirlər görülüb. 21 rayon üzrə 204 bələdiyyənin birləşməsi nəticəsində 94 yeni bələdiyyənin yaradılması da ilin əhəmiyyətli hadisələrdən olub. Seçki prosesində 93 bələdiyyənin formalaşdırılması prosesi həyata keçirilib.

M.Səlimzadə yerli özünüidarə sahəsində beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, qarşılıqlı səmərəli əməkdaşlıq şəraitində həyata keçirilən tədbirlər, maarifləndirmə işləri barədə də məlumat verib. Qeyd edilib ki, əvvəllər bələdiyyə sədrləri tərəfindən təkbaşına qərarlar qəbul olunduğundan, bu, ciddi qanun pozuntusu sayılırdı. Son üç ildə isə artıq belə hallar müşahidə edilmir. Bu, həyata keçirilən inzibati məsuliyyət tədbirlərinin, eyni zamanda bələdiyyə sahəsində aparılan maarifləndirmə tədbirlərinin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

*Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və bələdiyyələrlə seçicilər arasında əlaqələrin daha da möhkəmləndirilməsi təmin ediləcək*

Sonra məruzə ətrafında müzakirələr aparılıb. Çıxış edən milllət vəkilləri məruzənin əsaslandırılmış şəkildə, dolğun və əhatəli hazırlandığını vurğulayaraq bildiriblər ki, son illər bələdiyyələrin maliyyə mənbələrinin, büdcəsinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib və gələcəkdə bu işlər davam etdiriləcək. Daha sonra iclasda bələdiyyələrlə bağlı qanun layihələrinə baxılıb.

Komitə sədri Arif Rəhimzadə bildirib ki, 3 fəsil, 20 maddədən ibarət olan «Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında» qanun layihəsi bələdiyyə qulluqçuları üçün etik davranış qaydaları və prinsiplərini, həmçinin onlara əməl olunması ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanun layihəsində bələdiyyə qulluqçusunun xidməti davranışının hüquqi tənzimlənməsi, etik davranış qaydaları və bu qaydaların həyata keçirilməsinin təmin edilməsi prinsipləri əksini tapıb. Sənəd etik davranış qaydalarının pozulmasına görə məsuliyyəti də nəzərdə tutur.

İclasda «Bələdiyyə qulluğu haqqında» Qanunda dəyişikliklər edilməsi barədə» qanun layihəsi də müzakirə olunaraq bir sıra maddələr əlavə edilib. A.Rəhimzadə vurğulayıb ki, qanunda təklif edilən dəyişiklik bələdiyyə sahəsində aparılan islahatların məntiqi davamı olmaqla, bələdiyyə qulluğuna qəbul sahəsində yaranan münasibətlərin daha mükəmməl və şəffaf tənzimlənməsi məqsədi ilə həyata keçirilir.

Milli Məclisin deputatları dəyişikliklərin vacibliyini diqqətə çatdıraraq bildiriblər ki, bu, bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılmasını və bələdiyyələrlə seçicilər arasında əlaqələrin daha da möhkəmləndirilməsini təmin edəcək.

**Rəşad SADIQOV**

# Xüsusi internat-məktəbdə görüş keçirilib

Vergi işçilərinin peşə bayramı ərəfəsində 6 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinin əməkdaşları tərəfindən Lənkəran şəhərindəki xüsusi internat-məktəbin müəllim və şagirdləri ilə görüş keçirilmişdir.

Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Əli Babayev Vergilər Nazirliyi tərəfindən aparılan vergi siyasətinin başlıca prinsiplərindən birinin cəmiyyətdə vergi mədəniyyətinin yüksəldilməsi, vergilərlə bağlı biliklərin təbliği olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, gələcəyin potensial vergi ödəyiciləri olan orta məktəb şagirdlərinin vergilərlə bağlı biliklərinin olmasının mühüm əhəmiyyət kəsb etdiyi üçün Vergilər Nazirliyi tərəfindən bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələri ilə sıx əməkdaşlıq edilir. Vergi maarifçiliyinin gücləndirilməsi məqsədilə orta məktəb şagirdləri və ali məktəb tələbələri üçün bir neçə dərslik nəşr olunmuş, ümumtəhsil məktəblərində vergilərə dair metodiki kabinetlər yaradılmışdır.



Görüş zamanı informatika dərslərinin daha keyfiyyətli tədrisi məqsədilə məktəbə kompüter hədiyyə edilmiş, görüşə dəvət olunan «Vergi dostları» şəbəkəsinin beş fəal üzvünə fəxri fərmanlar verilmişdir.

Məktəbin direktoru Mehriban Səfərova gənclərə göstərilən diqqət və qayğıya görə Vergilər Nazirliyinə və yerli vergi orqanı əməkdaşlarına təşəkkürünü bildirmişdir.

# Daşınmaz əmlakın elektron məlumat bazası yaradılacaq

*Qabaqcıl dünya ölkələrinin daşınmaz əmlakın kadastrı sahəsindəki təcrübələrinin təhlili göstərir ki, məlumatların toplanması, emalı və saxlanması sahələrindəki təkrarçılığı aradan qaldırmaqla əmək və maliyyə xərclərində qənaətə nail olmaq mümkündür. Artıq Avropa ölkələrinin əksəriyyətində ayrı-ayrı sahəvi kadastrların daşınmaz əmlakın dövlət kadastrında, vahid informasiya məkanında cəmləşdirilməsi prosesi yekunlaşmışdır.*

Azərbaycan da bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanır. Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) daşınmaz əmlakın vahid dövlət kadastrının, qeydiyyatının, ünvan reyestrinin tərtibi və aparılması sahələrində qabaqcıl dünya ölkələrinin təcrübələrinin öyrənilməsi və əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində ciddi işlər görür. «Daşınmaz əmlakın qeydiyyatı» layihəsi çərçivəsində yaradılan «Daşınmaz əmlakın kadastrı, qeydiyyatı və idarə edilməsi» İnformasiya Sistemi bir çox ümumdövlət və regional idarəetmə məsələlərinin həllinə dəstək verir. Mərkəzi icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər müxtəlif məqsədlər üçün bu sistemin məlumatlarından istifadə edirlər. Sistem, ilk növbədə, hüquqi münasibətlərin tənzimlənməsi sahəsində informasiya mənbəyi rolunu oynayaraq fiziki və hüquqi şəxslərin, ayrı-ayrı subyektlərin, bələdiyyələrin daşınmaz əmlak üzərində hüquqlarının dövlət və məhkəmə müdafiəsi, habelə hüquq subyektləri arasında əmlak hüquqlarının bölgüsü prosesini informasiya dəstəyi ilə təmin edir.

2015-ci ilin sonuna kimi ilk dəfə Bakıda daşınmaz əmlakın elektron kadastrının mükəmməl məlumat bazası yaradılacaq, yaxın 3-4 il ərzində isə bütün respublika ərazisində kadastrın informasiya bazasının formalaşdırılması üzrə işlər başa çatdırılacaq. Bu barədə Bakıda keçirilən «Azərbaycanda ünvan reyestri sistemi və daşınmaz əmlak kadastrı: perspektivlər və uğurlar» mövzusunda təqdimatda Dövlət Əmlak Məsələləri Komitəsi yanında Texniki inventarlaşdırma və daşınmaz əmlakın kadastrı Mərkəzinin direktoru Ramiz Quliyev bildirib.

Onun sözlərinə görə, son illər ərzində Azərbaycanda daşınmaz əmlakın kadastrının yaradılması və rəqəmsal kadastr xəritələrinin hazırlanması üzrə mühüm işlər görülüb. Hazırda qabaqcıl beynəlxalq təcrübə əsasında müasir kadastr sisteminin yaradılması üzrə işlər aparılır: «Bakı şəhərinin 7 rayonunda kadastrın yaradılması işləri başa çatıb. Hazırda Binəqədi, Qaradağ, Pirallahı, Nizami və Xətai rayonlarında elektron kadastrın məlumat bazası yaradılıb».

Layihə çərçivəsində Gəncə şəhərinin və Şəki rayonunun elektron kadastr bazasının və rəqəmsal kadastr xəritələrinin yaradılması üzrə işlərin 2016-cı ilin birinci yarısında tamamlanması nəzərdə tutulub. R.Quliyevin sözlərinə görə, bu günədək respublikanın 53 şəhər və rayonunda kadastrların sadələşdirilmiş məlumat bazasının yaradılması işləri başa çatıb. Bundan başqa, ilin sonuna kimi respublikanın bütün ərazisini əhatə edəcək ünvan reyestrinin məlumat sistemi istifadəyə veriləcək ki, bu da ünvanların verilməsi üzrə elektron xidmətlərin göstərilməsinin təşkilinə imkan verəcək.

ƏMDK rəsmisinin bildirdiyinə görə, bu ilin ikinci yarısında avtonəqliyyat vasitələrində istifadə olunan GPS naviqatorları üçün ünvanların məlumat bazası da istismara veriləcək, respublikanın bütün ərazisində isə yeni ünvan lövhəciklərinin vurulması 2015-2017-ci illərdə başa çatdırılacaq.

**Fəxriyyə İKRAMQIZI**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizin davamını sizə təqdim edirik. Bir daha bildiririk ki, ilk olaraq yeni hesablar planı üzrə 111, 112 və 113 (sonra 101, 102 və 103) hesablara dair ikili yazılışları təqdim edəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

**4. ƏDV ödəyicisi tərəfindən nağd qaydada 100 % avans ödəmə yolu ilə avadanlığın alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet *(məbləğ)* | Kredit *(məbləğ)* |
|---|---|---|---|---|
| 06.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Qabaqcadan avadanlığın ƏDV ilə birlikdə dəyəri avans olaraq kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | 11800 | |
| 06.01.2015 | 221, Kassa | Qabaqcadan avadanlığın ƏDV ilə birlikdə dəyəri avans olaraq kassadan malsatana (onun vəkalətnamə təqdim etdiyi şəxsə) ödənilib | | 18000 |
| 06.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Qabaqcadan avadanlığın ƏDV ilə birlikdə dəyəri avans olaraq təhtəlhesab şəxs vasitəsilə malsatana (onun kassasına) ödənilib | 11800 | |
| 06.01.2015 | 244, Təhtəlhesab məbləğlər | Qabaqcadan avadanlığın ƏDV ilə birlikdə dəyəri avans olaraq təhtəlhesab şəxs vasitəsilə malsatana (onun kassasına) ödənilib | | 18000 |
| 08.01.2014 | 113, Tamamlanmamış kapital qoyuluşları | Avadanlıq alınmışdır (ƏDV ilə birlikdə məbləğ) | 11800 | |
| 08.01.2014 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Avadanlıq alınmışdır (ƏDV ilə birlikdə məbləğ) | | 11800 |
| 10.01.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Alınmış avadanlıq istismara verilib | 11800 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış avadanlıq istismara verilib | | 11800 |
| 10.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Kassadan və ya təhtəlhesab şəxs tərəfindən malsatana avadanlığın avans olaraq ödənilən ƏDV ilə birlikdə dəyəri zaçot edilir | 11800 | |
| 10.01.2015 | 243, Verilmiş qısamüddətli avanslar | Kassadan və ya təhtəlhesab şəxs tərəfindən malsatana avadanlığın avans olaraq ödənilən ƏDV ilə birlikdə dəyəri zaçot edilir | | 11800 |

**5. Ədv ödəyicisi tərəfindən binanın (tikilinin) təsərrüfat üsulu ilə tikilməsi**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet *(məbləğ)* | Kredit *(məbləğ)* |
|---|---|---|---|---|
| 31.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Tikinti işçilərinə əmək haqqı hesablanıb | 20000 | |
| 31.01.2015 | 533, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Tikinti işçilərinə əmək haqqı hesablanıb | | 20000 |
| 31.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Hesablanmış əmək haqqına sosial sığorta haqqı hesablanıb | 4400 | |
| 31.01.2015 | 522. Sosial sığorta və təminatlar üzrə öhdəliklər | Hesablanmış əmək haqqına sosial sığorta haqqı hesablanıb | | 4400 |
| 05.02.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Tikinti zamanı istifadə olunmuş materialların dəyəri | 75000 | |
| 05.02.2015 | 201, Xammal və materiallar | Tikinti zamanı istifadə olunmuş materialların dəyəri | | 75000 |
| 14.02.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Tikinti zamanı digər subpodratçıların gördükləri işlər | 18000 | |
| 14.02.2015 | 536, Tikinti müavilələri üzrə kreditor borclar | Tikinti zamanı digər subpodratçıların gördükləri işlər | | 18000 |
| 16.02.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Binanın tikintisi başa çatdırılıb və istismara verilib (binadan bütövlükdə ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | 117400 | |
| 16.02.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Binanın tikintisi başa çatdırılıb və istismara verilib (binadan bütövlükdə ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | | 117400 |
| 16.02.2015 | 121, Daşınmaz əmlaka investisiyalar – ilkin dəyər | Və ya binanın tikintisi başa çatdırılıb və istismara verilib (bina bütövlükdə başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün nəzərdə tutulub | 117400 | |
| 16.02.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Və ya binanın tikintisi başa çatdırılıb və istismara verilib (bina bütövlükdə başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün nəzərdə tutulub | | 117400 |

**6. ƏDV ödəyicisi tərəfindən nağdsız qaydada binanın (hazır tikilinin) alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet *(məbləğ)* | Kredit *(məbləğ)* |
|---|---|---|---|---|
| 08.01.2014 | 113, Tamamlanmamış kapital qoyuluşları | Bina alınmışdır (ƏDV-siz məbləğ) | 50000 | |
| 08.01.2014 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Bina alınmışdır (ƏDV-siz məbləğ) | | 50000 |
| 08.01.2014 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış binanınn dəyərinin üzərindəki ƏDV | 9000 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış binanınn dəyərinin üzərindəki ƏDV | | 9000 |
| 10.01.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Alınmış bina istismara verilib (binadan bütövlükdə ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | 50000 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış bina istismara verilib (binadan bütövlükdə ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | | 50000 |
| 10.01.2015 | 121, Daşınmaz əmlaka investisiyalar – ilkin dəyər | Və ya alınmış bina istismara verilib (bina bütövlükdə icarəyə götürənlərə icarəyə verilməsi üçün nəzərdə tutulub) | 50000 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Və ya alınmış bina istismara verilib (bina bütövlükdə icarəyə götürənlərə icarəyə verilməsi üçün nəzərdə tutulub) | | 50000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Binanın ƏDV-siz dəyəri bank hesabından köçürülüb | 50000 | |
| 12.01.2015 | 222, Bankda olan cari manat hesabı | Binanın ƏDV-siz dəyəri bank hesabından köçürülüb | | 50000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Binanın dəyərinin ƏDV-si ƏDV depozit hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | 9000 | |
| 12.01.2015 | 223, ƏDV depozit hesabı | Binanın dəyərinin ƏDV-si ƏDV depozit hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | | 9000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Və ya binanın dəyərinin ƏDV-si bank hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | 9000 | |
| 12.01.2015 | 223, ƏDV depozit hesabı | Və ya binanın dəyərinin ƏDV-si bank hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | | 9000 |
| 12.01.2015 | 521, Vergi öhdəlikləri | Binasatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | 9000 | |
| 12.01.2015 | 241, Əvəzləşdirilən ƏDV | Binasatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | | 9000 |

# Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| SN | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | Obyektin adı |
|---|---|---|---|---|
| 1 | XRVXD | «ŞİMAL ELEKTRİK STANSİYASI» MMC | Bakı şəhəri Xəzər rayonu | |
| 2 | XRVXD | «AZƏRENERJİ» ASC-nin «Gəncə Regional Elektrik Şəbəkəsi» MMC | Gəncə şəhəri | |
| 3 | XRVXD | Azərbaycan Respublıkası «AZƏRSU» ASC-nin «Birləşmiş sukanal» MMC | Bakı şəhəri Yasamal rayonu | Ofis |
| 4 | XRVXD | Azərbaycan Respublikası «AZƏRSU» ASC-nin «Sutikinti» Müəssisəsi | Bakı şəhəri Binəqədi rayonu | |
| 5 | Bakı VD | «TURAN-V-2010» MMC | Bakı şəhəri Binəqədi rayonu | |
| 6 | Bakı VD | «NUR-İNŞAAT» MMC | Bakı şəhəri Nərimanov rayonu | Yaşayış binasının tikintisi (ofis) |
| 7 | Bakı VD | «3 saylı BAKLİFT» ixtisaslaşdırılmış İstehsalat İdarəsi | Bakı şəhəri Xətai rayonu | |
| 8 | Bakı VD | «QLOBUS-M» MMC | Bakı şəhəri Yasamal rayonu | |
| 9 | Bakı VD | «XƏZƏR SƏNAYE TEXNİKA» İstehsalat Şirkəti | Bakı şəhəri Nərimanov rayonu | |
| 10 | Bakı VD | «EVRO STROY- S» MMC | Bakı şəhəri Yasamal rayonu | |
| 11 | Bakı VD | «ENERQOKOMPLEKT» MMC | Bakı şəhəri Yasamal rayonu | |
| 12 | Bakı VD | «Doppelmayr Seilbahnen Gmbh» şirkətinin Azərbaycan Respublikasındakı filialı | Bakı şəhəri Səbail rayonu | |
| 13 | Bakı VD | «İMPRESA S.P.A.» şirkətinin Azərbaycan Respublikasındakı filialı | Bakı şəhəri Yasamal rayonu | |
| 14 | Bakı VD | Həbilov Rüfət Məhəmməd oğlu | Bakı şəhəri Səbail rayonu | |
| 15 | Bakı VD | «H.Z.TAĞIYEV adına Toxucutikişsənaye kombinatı» ASC | Bakı şəhəri Xətai rayonu | İstehsalat obyekti |
| 16 | Bakı VD | Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatı Mənzil-kommunal təsərrüfatı departamentinin 1 saylı xüsusi təyinatlı mənzil-kommunal təsərrüfatı birliyi | Bakı şəhəri Nərimanov rayonu | 120 saylı MİS |
| 17 | Bakı VD | Hacıyeva Kifayət Saleh qızı | Bakı şəhəri Nəsimi rayonu | |
| 18 | Bakı VD | «RƏVAN» kiçik müəssisəsi | Bakı şəhəri Xətai rayonu | |
| 19 | Bakı VD | «ABŞERON-FF» MMC | Bakı şəhəri Səbail rayonu | |
| 20 | Bakı VD | «BAKI» Futbol klubu MMC | Bakı şəhəri Səbail rayonu | |
| 21 | 2 saylı ƏVD | Sumqayıt şəhəri mənzil təsərrüfatı istismarı idarəsi | Sumqayıt şəhəri | |
| 22 | 2 saylı ƏVD | «SUMQAYIT AŞQARLAR» ASC | Sumqayit şəhəri | İcarə obyekti |
| 23 | 3 saylı ƏVİ | Yusifov Tacəddin Bahəddin oğlu | Xaçmaz rayonu | |
| 24 | 4 saylı ƏVİ | «STAR LTD» MMC | Şamaxı rayonu | «STAR» zavodu |
| 25 | 5 saylı ƏVİ | «TELEMEXANİKA ZAVODU» MMC | Şirvan şəhəri | İstehsalat obyekti |
| 26 | 5 saylı ƏVİ | «ŞİRVAN ARAZ ZAVODU» MMC | Şirvan şəhəri | İnzibati bina |
| 27 | 5 saylı ƏVİ | Salyan Melioservis İdarəsi | Salyan rayonu | İnzibati bina və yardımçı tikililər |
| 28 | 11 saylı ƏVD | Taxıl toxumçuluğu üzrə Şəki rayonu «QARATORPAQ» dövlət kənd təsərrüfatı istehsalı müəssisəsi MMC | Şəki rayonu | |
| 29 | 12 saylı ƏVD | «GƏNCƏ SU KANAL» Törəmə ASC | Gəncə şəhəri | Ofis |
| 30 | 12 saylı ƏVD | Rüstəmov Rövşən Nəcəf oğlu | Gəncə şəhəri | |

## vergi təqvimi

**FEVRAL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
2 fevral – «(10.1)»
16 fevral – «(5)»
20 fevral – «(1-1)», «3», «4», «8», «10.1», «10.2», «10.3»

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür. Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Rusiyada fiziki şəxslərin yeni əmlak vergisi qüvvəyə minib



Yanvarın 1-dən bu təşəbbüs Rusiyanın 28 pilot regionunda tətbiq olunur. İndi vətəndaşlar vergini təkcə mənzilə, otağa və evə görə deyil, həm də hamam, qaraj, anbar və digər təsərrüfat tikililərinə görə ödəyəcəklər. Vergi tikilinin kadastr dəyəri əsasında hesablanacaq.

Daha bir yenilik yarımçıq tikilinin vergitutma obyekti kimi tanınmasıdır: indiyədək yarımçıq qalmış tikililərə görə vergi ödənilmirdi.

Ekspertlərin fikrincə, bu ədalətli təcrübə payına əmlak vergisi düşən bələdiyyə qurumlarının gəlirlərinin artımını təmin edəcək.

Sahədə ayrı yerləşən hamamlara, köhnə və yeni yardımçı tikililərə, qarajlara və digər qeydə alınmış təsərrüfat tikililərinə görə bazar dəyəri üzrə vergi ödənilməli, yaxud onlar sökülməlidir.

Bu il yanvarın 1-dən mənzilə, bağa, maşına və torpaq sahəsinə görə vergi orqanından heç vaxt qəbz almayan və vergi ödəməyən sahibkarların özü mülkiyyətlərində olan əmlak haqda vergi orqanlarına məlumat verməyə borcludurlar.

# Çin növbəti dəfə neft məhsullarının istehlakı üzrə vergini artırır

Benzin, xam neft və sürtgü materiallarının istehlakının hər 1 litrinə vergi 1,4 yuandan 1,52 yuanadək yüksəlib. Dizel yanacağı, aviasiya kerosini istehlakı üzrə vergi isə hər litrə görə 1,1 yuandan 1,2 yuanadək artıb.Bundan başqa, Çin Xalq Respublikasının islahat və inkişaf işləri üzrə Dövlət komitəsindən bildirilib ki, benzinin hər tonunun qiyməti 180 yuan, dizel yanacağının qiyməti isə hər tona 230 yuan azalıb.

Beləliklə, «90» markalı benzinin və «0» markalı dizel yanacağının pərakəndə satış qiyməti müvafiq olaraq hər litrinə 0,13 və 0,2 yuan azalıb.

Çində ekologiyaya mənfi təsir göstərən bir sıra enerji daşıyıcılarının və malların istehlakına görə vergi ilk dəfə 1994-cü ildə ətraf mühitin qorunması və inkişafın az enerji tutumlu modellərinin təbliği məqsədilə tətbiq edilməyə başlanmışdır.

# Qazaxıstanda alkoqollu içkilərin satışına vergi tətbiq edilir

Astana şəhərində alkoqollu içkilərin hər beş şüşəsindən biri qeyri-qanuni satılır və bu məhsulun «kölgə» dövriyyəsi ümumi dövriyyənin təxminən 30%-ni təşkil edir. Alkoqollu məhsulları «kölgədən» çıxarmaq və rəqabəti gücləndirmək üçün yanvarın 1-dən spirtli içkilərin bütün istehsalçıları illik lisenziya yığımları ödəməyə borcludurlar.

Verginin məbləği topdansatış ticarətçilər üçün - 200 aylıq hesablama göstəricisi məbləğinə bərabərdir, pərakəndə satıcılar üçün isə şəhərdən asılıdır. Məsələn, Astanada ödəniş məbləği 100 aylıq hesablama göstəricisi təşkil edir. Bu yığımın tətbiqi alkoqollu məhsullarla ticarəti qaydaya salan sırf iqtisadi tədbirdir.



Hesablamalara görə, hazırda paytaxtda təxminən 2 min nəfərin pərakəndə ticarət və 64 nəfərin topdansatış ticarət üçün lisenziyası qeydə alınıb. Qeyd edək ki, vergidən yayınanlara aylıq hesablama göstəricisinin 150-dən 700-dək miqdarında cərimə nəzərdə tutulub. Bundan başqa, hökumət lisenziyanın fəaliyyətini yarim il müddətinə dayandırmaq hüququna malikdir.

Xarici ölkələrin təcrübəsi

# Niderland Krallığı: gəlir vergisi

Ölkənin gəlir vergisi sistemi 2001-ci ildə köklü dəyişikliyə uğramışdır: yığımlar və investisiya gəlirlərindən gəlir vergisi ödənilməsinə başlanılmış, zənginlik vergisi ləğv olunmuşdur.

Niderland vergi qanunvericiliyində «rezidentliyin» aydın izahı yoxdur. Bu anlayış xüsusi şərtlərə uyğun qiymətləndirilir.

Niderland rezidenti olan şəxs bu ölkəni tərk edib 1 il ərzində digər ölkənin rezidentliyini qəbul etmədən geri qayıdarsa, həmin şəxs gedib qayıtdığı müddətdə də Niderland rezidenti hesab olunur.

Rezidentlər bütün dünya üzrə əldə etdikləri gəlirlərdən, qeyri-rezidentlər isə Niderland mənbəyindən əldə etdikləri gəlirlər üzrə gəlir vergisinin ödəyiciləxərclər, təhsil xərcləri, uşaqlar üçün xərclər, ianələr, dividendlərdən ödəmə mənbəyində tutulmuş vergilərin ödənilmiş məbləğləri illik gəlir vergisi bəyannaməsində cütlüklərdən birinin gəlir-xərclərinə aid edilə bilər. Muzdlu işdən gəlir istisna olmaqla 18 yaşadək uşaqların gəlirləri valideyn himayəsini həyata keçirənlərdən birinin gəliri kimi vergiyə cəlb olunur. Əgər valideyn himayəsini hər iki valideyn həyata keçirirsə, bu cür gəlirin 50%-i hər bir valideynin gəlirinə əlavə edilir. Daimi olaraq ayrı yaşayan evli cütlüklərin gəlirləri ayrıca vergiyə cəlb olunur.

Ortaqlıqların gəlirləri ortaqlar səviyyəsində ayrıca vergiyə cəlb olunur. Hər bir ortağın sağı gəlirləri, natural ödənişləri əhatə edir.

• sahibkarlıq gəlirləri - sahibkarlıq və peşə gəlirləri ümumi qaydada proqressiv vergi dərəcələri ilə vergiyə cəlb olunur.

• digər fəaliyyətdən gəlirlər - muzdlu iş və sahibkarlıq gəlirlərinə aid olmayan, sahibkarlıq fəaliyyətinin və ya müəssisənin bağlanması ilə əlaqədar vergi ödəyicisinin aktivlərin təqdim edilməsindən gəlirlərini əhatə edir.

• digər fiziki şəxslərdən (alimentlər) və ya sığorta şirkətlərindən (sığorta ödənişləri) dövri şəkildə alınan ödəniş və təqaüdlər;

• dövlət orqanlarından dövri şəkildə alınan ödənişlər (qocalığa görə təqaüdlər);




ridir. Qeyri-rezident vergi ödəyiciləri bir sıra konkret hallarda rezident vergi ödəyiciləri kimi vergiyə cəlb olunma seçimini edə bilərlər.

Evli cütlüklər və qeydə alınmış birgə yaşayan şəxslər gəlir vergisi məqsədləri üçün partnyor hesab edilirlər və qazanılan gəlirlərdən (hazırkı və ya keçmiş muzdlu işdən gəlir, peşə, sahibkarlıq gəlirləri, annuitetlər) ayrıca vergiyə cəlb olunurlar. Lakin bəzi növ ümumi gəlirlər və xərclər - vergilər; səhmlərdən, əmanətlərdən, investisiyalardan gəlirlər; həmçinin fövqəlada sığorta ödənişləri şəklində aldıhibkarlıq gəliri onun ortaqlıq səviyyəsindəki payı üzrə müəyyənləşdirilir və ayrıca sahibkarlıq güzəşti hüququ əldə edir.

***Vergiyə cəlb olunan gəlirlər:*** Rezident fiziki şəxslər bütün dünya üzrə əldə etdikləri gəlirlərdən gəlir vergisi ödəyirlər. Vergiyə cəlb olunan gəlirlər 3 qrupa bölünür:

1-ci qrup aşağıdakı gəlir mənbələrindən alınan gəlirlərdir:

- hazırkı və keçmiş muzdlu işdən gəlir - vergi ödəyicisinin muzdlu işdən əməkhaqqını, məvacib, xəstəlik ödənişləri, sosial

• vergi ödəyicisinin özünün yaşadığı fərdi ev.

2-ci qrup gəlirlərə aid edilən fiziki şəxsin rezident və ya qeyri-rezident müəssisələrdən əldə etdiyi dividend, kapital gəlirləri 250 min avroyadək olduqda 22% dərəcə ilə, bundan artıq məbləğdən 25% sabit dərəcə ilə vergiyə cəlb olunur.

3-cü qrup gəlirlərə investisiya və yığım gəlirləri aid edilir. Vergi ödəyicisinin bütün aktivlərinin illik 4% həcmində ona səmərə gətirdiyi nəzərə alınaraq, həmin məbləğdən 30% sabit vergi dərəcəsi ilə vergi tutulur.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Gülçiçəklilər sırasından dekorativ ağac növü, daha çox Yaponiyada bitir; 2.Azərbaycanın ilk peşəkar kino xadimlərindən biri. «Arşın mal alan» (1945) filmindəki Süleyman obrazı canlandıran aktyor və rejissor, əməkdar incəsənət xadimi; 3.Qiymətli kağız üzrə təklif olunan qiymətlə tələb olunan qiymət arasındakı fərq; 4.Daş dövrünün son mərhələsi (yeni daş dövrü); 5.Füzuli rayonunda kənd adı. Azərbaycan xalqının soykökündə yer tutan türk tayfalarından birinin adından götürülüb; 6.Azərbaycanlı futbol mütəxəssisi. Keçmiş futbolçu, əməkdar məşqçi; 9.Yunanıstanın şimal-qərbində vilayət; 13.Bəstəkar, Azərbaycanın xalq artisti, məşhur mahnıların müəllifidir, bir sıra filmlərə musiqi bəstələyib; 15.XIX əsrdə yaşayıb-yaratmış görkəmli Azərbaycan şairəsi; 16.Sərnişin vaqonunda hər tərəfi bağlı olan meydança. Musiqi aləti; 17.İbtidai insanların ilk sığınacaq yerləri, yaşayış evləri; 18.İstilik qazanxanası sistemlərində su qızdırıcılarının ümumi adı; 20.Quba və Xaçmaz rayonlarının ərazisindən axaraq Xəzər dənizinə tökülən çay; 21.Müxtəlif vaxtlarda Britaniya imperiyasına daxil olan bir sira ölkələrin, o cümlədən Finlandiya və Estoniyanın xırda pul vahidi. **Soldan sağa:** 1.Karbonat sinfinə aid olan mineral (süxur); 5.Məşhur holland rəssamı. Postimpressionizm cərəyanının nümayəndəsi; 7.Çalğı alətlərini, habelə xor oxuyarkən səsindən əsas ton kimi istifadə edilən, bərk cismə toxundurulduqda müəyyən yüksəklikdə səs çıxaran kiçik polad alət; 8.Gürcüstanda yaşayan müsəlman etnik qrup; 10.İri ticarət mərkəzinin adı; 11.Türkiyədə şəhər; 12.Qədim yunan şairi. Monodik melikanın ən görkəmli nümayəndələrindən biri; 14.Xüsusi, ayrıca buraxılış üzrə yerləşdirilən qiymətli kağızlar, istiqrazlar seriyası; 19.«Mən mahnı qoşuram» filmində (1979) Sonanın anasının obrazını oynayan aktrisanın adı; 21.Yaşayış binasının daxili həyəti; 22.Rusiyada çay; 23.Xalq şənliyinin bir növü; 24.Panama kanalında iri ada; 25.Həmişə bir yerdə olan, yerini dəyişməyən, bir yerdən başqa yerə köçməyən idarə, müəssisə, əşya və s.



*Holland rəssamının məşhur «Ulduzlu gecə»si. 1889.*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qlasse; 2.Taburet; 3.Enniy *(Kvint)*; 4.Toyota; 5.Kabul; 6.Vurğun; 9.İkta; 13.Yula; 15.Aristid; 16.Astar; 17.Sement; 18.Bəxşiş; 20.Mirzə *(Babayev)*; 21.Avizo. **Soldan sağa:** 1.Qottentot; 5.KİV; 7.Albaniya; 8.Abar; 10.Saray; 11.Tokelau; 12.Ütöya; 14.Baran; 19.Somelye; 21.Aliyə; 22.Ağrı; 23.Beşiktaş; 24.Ayə; 25.Patrondaş.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14000

## idman

# Azərbaycan güləşçilərinin tarixi qələbəsi



Tehranda keçirilən yunan-Roma güləşi üzrə Dünya Kuboku yarışları başa çatıb. Azərbaycan güləşçiləri bu mötəbər yarışda tarixi uğura imza atıblar.

Millimizin finala vəsiqə qazanması artıq böyük uğur kimi qiymətləndirilirdi. Çünki bu vaxta qədər güləşçilərimiz Dünya kuboku yarışlarında yalnız 3-cü yerlə kifayətlənmişdilər. Lakin, necə deyərlər, «iştah dil altındadır». Finalda güclü Rusiya millisi ilə qarşılaşan Azərbaycan yığması xal hesabı ilə güclü rəqibini üstələyərək qızıl medala sahib olub. 4:4 hesabı ilə başa çatan həlledici görüşdə güləşçilərimizdən Həsən Əliyev (66 kq), Rəsul Çunayev (71 kq), Rafiq Hüseynov (80 kq) və İslam Abbasov (85 kq) xalçadan qalib ayrılıblar. Hesab bərabər olsa da, Azərbaycan güləşçiləri xalların keyfiyyətinə görə (18:17) qələbəyə layiq görülüb. Millimizin birinci yerə çıxmasında güləşçimiz İslam Abbasovun rəqibini vaxtından əvvəl təmiz qələbə ilə məğlub etməsi də böyük rol oynayıb.

Beləliklə, yunan-Roma güləşi üzrə milli komandamız tarixi ərzində ilk dəfə dünya kubokuna sahib olub. Turnirdə «B» qrupunda mübarizə aparan millimiz ilk olaraq yerli İran idmançıları ilə qarşılaşıb və pəhləvanlarımız gərgin keçən görüşü 6:2 hesablı qələbə ilə başa vurublar. Ardınca Almaniya və İsveç komandalarını 7:1 hesabı ilə məğlub edən yığmamız qrup mərhələsini lider kimi tamamlayıb. Bürünc medallar uğrunda görüşdə isə Türkiyə millisinə qalib gələn İran yığması üçüncü pillədə qərarlaşıb. Beşinci yer uğrunda görüşdə Macarıstan İsveç millisinə qalib gəlib. Almaniya güləşçilərinə məğlub olan Ermənistan yığması isə Dünya Kuboku yarışlarını sonuncu pillədə başa vurub.




# «Baku Fires» birincilik uğrunda mübarizəni davam etdirir

*Fevralın 21-də Quba Olimpiya İdman Kompleksində «Baku Fires» və «Puerto Riko Hurricanes» komandaları arasında keçirilən qarşılaşmada boksçularımız inamlı qələbə qazanıblar.*

Dünya Boks Seriyası (WSB) Liqasının 6-cı turu çərçivəsində keçirilən görüşdə ilk döyüş Elvin Məmişzadə (52 kq) və Xavyer Çintron Okasio arasında baş tutub. Bu mübarizədə rəqib boksçu qalib tərk edib. Növbəti döyüşdə Albert Səlimov (60 kq) Angel Lopeso qalib gələrək hesabı bərabərləşdirib.

Gərginliyi ilə yadda qalan Pərviz Bağırov - Flaz Niklaus döyüşündə də (69 kq) «Baku Fires»in üzvü üstün olub. Qarşılaşmada dördüncü döyüş Soltan Migitinovla (81 kq) Cozef Laboy arasında keçirilib. Təmsilçimiz rəqibinə şans verməyərək mübarizədən qalib ayrılıb. Son döyüşdə isə Enrike dos Santos Nasimento ilə qarşılaşan Arslanbek Mahmudov (91 kq-dan yuxarı) rəqibinə nokautla qalib gəlib. Beləliklə, qarşılaşma 4-1 hesabı ilə komandamızın xeyrinə başa çatıb.

Qeyd edək ki, «Baku Fires» komandası Dünya Boks Seriyasının V mövsümündə B qrupunda «İtalia Thunder», «Astana Arlans», «Argentina Condors», «Caciques Venezuela», «Puerto Rico Hurricanes», «Rafako Hussars Poland» və USA Knockouts klubları ilə növbəti mərhələyə çıxmaq uğrunda yarışır.

# Çempionumuzun daha bir uğuru

Macarıstanın Eger şəhərində paralimpiyaçı cüdoçular arasında Dünya Kuboku yarışlarında iştirak edən ikiqat paralimpiya çempionu İlham Zəkiyev bütün rəqiblərini üstələyərək yarışın qızıl medalını qazanıb. Finalda yaponiyalı idmançı, London Paralimpiya Oyunlarının qalibi Masaki Kentonu məğlub edən İ.Zəkiyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Xatırladaq ki, 73 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçu Ramil Qasımov da bütün rəqiblərinə qalib gələrək dünya kuboku yarışlarının qalibi olub. Milli komandamızın üzvü Səbinə Abdullayeva (57 kq) isə final görüşündə məğlub olaraq gümüş medalla kifayətlənib.



## mozaika

sağlam həyat tərzi

# Stress şəkərli diabetə səbəb olur

***Qlazqo Universitetinin alimləri stress hormonlarının əmələ gəlməsi ilə ikinci tip şəkərli diabet arasında qarşılıqlı əlaqə tapıblar.***



Tədqiqatın nəticələri ABŞ-da həkimlər üçün nəzərdə tutulan nüfuzlu «Psixosomatik təbabət» jurnalında dərc olunub. Tədqiqatçılar hər bir iş yerində tez-tez təsadüf edilən ən adi və labüd stressi ikinci tip şəkərli diabetin yaranmasının əsas səbəblərindən biri hesab ediblər.

Qlazqo Universitetinin professoru Navid Səttar deyib: «İş yerlərində güclü psixoloji təzyiqə məruz qalan insanların ikinci tip diabetə tutulma riski 45 faiz artır. Qrupumuz 13 il ərzində 50 kişi və qadını müşahidə edərək bu qənaətə gəlib. Biz çox vaxt belə bir halla rastlaşırıq ki, stereoid hormonları, xüsusilə kortizol qəbul edən insanlarda ikinci tip şəkərli diabetin əlamətləri özünü büruzə verir, onların qanında davamlı olaraq yüksək fazli şəkər müşahidə olunur. Güclü və uzunçəkən stress nəticəsində də orqanizmdə kortizol hormonu çox olur. Bu da bir müddət sonra hüceyrələrin insulinə qarşı həssaslığında dəyişikliklərin yaranmasına və şəkərli diabetin inkişafına gətirib çıxara bilər. Məhz stress hormonu kortizolun çox olması orqanizmin insulinə qarşı həssaslığını azalda bilər».

Qeyd edək ki, London Universitet Kollecinin professoru Endryu Stepton başqa fikirdədir. Onun fikrincə, stress ilə diabet arasında əlaqə var, lakin ikinci tip diabetdən əziyyət çəkən insanların orqanizmi stressə başqa cür reaksiya verir.

# Texnologiya diabet bəlasını azaldır

Rəqəmli Tibb Agentliyi adlı təşkilat şəkər xəstəsi olan insanlar tərəfindən qurğu və mobil əlavələrdən istifadənin effektivliyini təsdiq edən hesabat dərc edib. Tədqiqat zamanı şəkərli diabet xəstəliyindən əziyyət çəkən 2 min amerikalının rəyi öyrənilib.

Məlum olub ki, hazırda həmin xəstələrdən yalnız 18%-i hər gün və ya həftədə bir neçə dəfə öz sağlamlıq vəziyyətini izləmək üçün elektron qurğulardan istifadə edir və səhhətlərinin yaxşı olduğunu bildirir.

İnternet məkanında informasiyanı ay ərzində axtaranlar daha çox olub və onların yalnız 4%-i sağlamlıqdan şikayət etməyib. Həmçinin xəstəliklərini ənənəvi üsullarla izləməyə üstünlük verənlər arasında 2% öz sağlamlıq vəziyyətindən razı qalıb.

Tədqiqat onlayn vasitələrdən istifadə edən xəstələrin daha sağlam olmasını sübut etməsə də, onlar özlərini gümrah hiss etdiklərini bildirib.



Mobil texnologiyalarda daha çox sevilən funksiyalar arasında istifadəçilər həkimlə tez və rahat əlaqə yaratmaq, eləcə də dərmanın qəbul edilməsi vaxtını bildirən texniki imkanları qeyd ediblər.

texnologiya

# Robot bazarı genişlənir

2017-ci ildə Çində dünyanın istənilən başqa ölkəsi ilə müqayisədə daha çox sənaye robotu olacaq. Bu haqda Beynəlxalq Robot Texnikası Federasiyasına (International Federation of Robotics) istinadən «Reuters» agentliyi yazıb. Hazırda Çində robot bazarının həcmi ildə 9,5 milyard dollara çatır və əgər müvafiq proqram təminatı, periferiya və mühəndis xidmətlərini də bu seqmentə daxil etsək, o zaman bu məbləğ 29 milyard dollar təşkil edir.

Çin hələ ki bu sahədə birinci pillədə deyil: indi ölkədə hər 10 min işçiyə yalnız 30 robot (Cənubi Koreyada 437, Yaponiyada 323, Almaniyada 282 və ABŞ-da 152) düşür. Qeyd edək ki, «Global and China Industrial Robot Report» sənədində yazıldığına görə, dünyada hər 10 min işçiyə orta hesabla 62 robot düşür ki, bu da Çinin göstəricisindən təxminən 2 dəfə yüksəkdir. Rusiyaya gəlincə, vəziyyət ürəkaçan deyil: burada 10 min işçiyə cəmi 2 robot düşür.



«Reuters» agentliyinin informasiyasında da qeyd edilir ki, Yaponiyanın sənaye robot istehsalçıları 60% göstərici ilə robot bazarında liderdir. Çin istehsalçıları öz bazar payını artırırlar, indi bu göstərici təxminən 25% təşkil edir. Hazırda Çində satışların 74%-i xarici istehsalçıların payına düşür. Çin hakimiyyəti isə yerli şirkətləri məhz Çin istehsalı olan sənaye robotlarını satın almağa təşviq edir.

«Grand View Research» təşkilatının proqnozuna görə, 2020-ci ilədək qlobal sənaye robotları bazarının həcmi 40 milyard dollara çatacaq.

maraqlı

# Roman rekord vurdu

Böyük rus yazıçısı Lev Tolstoyun «Anna Karenina» romanının onlayn oxunuşu «Ən böyük auditoriyası olan oxu marafonu» kateqoriyasında Ginnessin «Rekordlar kitabı»na düşüb. «Google» şirkəti və yazıçının Yasnaya Polyanadakı ev-muzeyinin birgə layihəsi olan bu onlayn qiraət 2014-cü ilin noyabrında başlanıb və 36 saat davam edib.



Onlayn oxuda Tolstoy yaradıcılığına xüsusi maraq göstərən 700 nəfər iştirak edib. Marafon təkcə Rusiyada yox, Nyu-York, Los-Anceles, Tokio, Tel-Əviv və başqa dünya şəhərlərində də keçirilib.

«Youtube» şəbəkəsində canlı yayımlanan oxuda iştirakçılar estafeti bir-birindən alıb marafona davam ediblər. Marafona Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov, jurnalist Leonid Parfyonov, aktyor Sergey Qarmaş və başqaları da qatılıblar.

Bundan sonra «Anna Karenina»nın «canlı nəşri»nə həsr olunan ayrıca sayt da yaradılıb. Naviqasiya sistemi saytda romanın onlayn qiraətinin istənilən bölümünü seçməyə imkan verir.

Bununla yanaşı, roman dəb, ölüm, şəyiə, dəmir yolu, karyera və s. tematikalar üzrə də bölünüb. O dövrün dəbini anlamaq istəyirsənsə, dan hissəni seçmək istəyirsənsə, buyur.

Bundan başqa, roman 4 musiqi temasına da bölünüb. İstəsəniz, oxunan parçaya uyğun mahnıya da eyni anda qulaq asa bilərsiniz.

**Müdriklər deyib ki...**

***«Keçmişdə təbiəti daha zəngin olan ölkələr varlı hesab edilirdi; indi isə insanların daha fəal olduğu ölkələr zəngin sayılır».***

***Henri Tomas Bokl (1821-1862)***

